DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 12 (362) / DEKABR 2021-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV: BİZ - BU TORPAQLARIN SAHİBLƏRİ BU TORPAQLARA QAYITMIŞIQ VƏ BUNDAN SONRA BU TORPAQLARDA ƏBƏDİ YAŞAYACAĞIQ

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri dekabrın 24-də Hadrut qəsəbəsinə səfərdən sonra Şuşa şəhərinə gəliblər. Dövlətimizin başçısı Şuşanın məşhur Cıdır düzündə çıxış edib.*



**Prezident İlham Əliyevin çıxışı**

- Son günlər ərzində mənə çoxlu təbrik məktubları gəlir, təbriklər gəlir, həm xaricdən həmkarlarımdan, müxtəlif ölkələrin dövlət və hökumət başçılarından, xaricdə yaşayan azərbaycanlılardan, təbii ki, ölkə vətəndaşlarından. Mən bütün insanlara - mənə xoş sözlər ünvanlayan, təbrik edən insanlara öz təşəkkürümü bildirmək istəyirəm. Xüsusilə Azərbaycan xalqına öz təşəkkürümü bildirmək istəyirəm, həm təbriklərə görə, həm də mənə göstərilən dəstəyə görə. Mən bu dəstəyi 2003-cü ildən - Prezident vəzifəsinə ilk dəfə seçiləndən bu günə qədər hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək iradəmi möhkəmləndirir. Bu dəstək nəticəsində biz hamımız – bütün Azərbaycan xalqı böyük tarixi uğurlara imza atmışıq.

Mən həmişə deyirdim ki, gün gələcək, işğal altındakı torpaqlarımız azad ediləcək, biz bu torpaqlara qayıdacağıq və qayıtmışıq. Azərbaycan xalqı bütün bu illər ərzində mənə inanırdı. Baxmayaraq ki, həm ovaxtkı məcburi köçkünlər, həm ölkə ictimaiyyəti ildən-ilə davam edən mənasız danışıqlara nəzər salaraq görürdü ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli çətinləşir. Amma buna baxmayaraq, doğma xalqım mənim sözlərimə inanırdı. Mən deyirdim ki, gün gələcək Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada dalğalanacaq və bu müqəddəs günü biz şəhidlərimizin qanı-canı bahasına yaşadıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Bu gün biz azad Qarabağdayıq. Bu gün biz azad Zəngəzurdayıq. Biz - bu torpaqların sahibləri bu torpaqlara qayıtmışıq və bundan sonra biz bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan xalqının mənim sözlərimə inamı məni daha da çox inandırırdı ki, biz buna nail olacağıq. Xalqımız birləşdi, bir amal uğrunda, bir müqəddəs ideya uğrunda birləşdi və istədiyinə nail oldu.

Azərbaycan xalqı yaxşı bilir ki, mən ad günlərimi qeyd etmirəm. Adətən ad günlərimə təsadüf edən günlərdə hansısa sosial obyektlərin açılışında iştirak edirdim, məcburi köçkünlərlə, şəhid ailələri ilə görüşürdüm. Şəhid ailələri üçün inşa edilmiş yeni evlərin açılışlarında, yeni salınmış köçkün qəsəbələrində bu kateqoriyadan olan insanlarla görüşürdüm. 50 illiyimi də məcburi köçkünlərlə bərabər qeyd etmişdim. 50 illiyimi Qarabağda – Ağcabədidə keçirdim, 60 illiyimi isə Qarabağda - bu dəfə Şuşada keçirirəm. Bu iki tarix arasında bir canlı bağlantı var. Ölkə ərazisində və bölgədə gedən proseslərə biz, sadəcə olaraq, seyrçi deyildik. Biz bu prosesləri böyük dərəcədə idarə edirdik. Biz bölgə gündəliyini formalaşdırırdıq. İkinci Qarabağ müharibəsində əldə edilmiş Zəfərdən sonra bizim gücümüz, nüfuzumuz, təsir dairəmiz daha da genişləndi.

Bu gün azad Qarabağda, Şuşada və Hadrutda olarkən mən, - əgər belə demək mümkündürsə, - öz ad günümü qeyd edirəm. Bu gün səhər Hadrutda Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi yeni silahlı birləşmə olan Komando Briqadasının hərbi hissəsinin açılışında iştirak edirdim. Mən bilirdim və hesab edirəm Azərbaycan xalqı da bu seçimi dəstəkləyər ki, bu gün mən Prezident, Ali Baş Komandan kimi hərbçilərə, Müzəffər Azərbaycan Silahlı Qüvvələrinə öz təşəkkürümü bildirmək və onların qarşısında yeni vəzifələr qoymaq üçün hərbçilərlə birlikdə olmalı idim.

Bu gün keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkib hissəsi olan Hadrutda - Xocavənd rayonunda ordu quruculuğunda aparılan işlərin yeni mərhələsinə qədəm qoyduq. Ondan sonra isə Şuşaya gəldim. Bu, mənim Şuşaya bu il yeddinci səfərimdir. Şuşa hər birimizi özünə çəkir. Düzdür, mən burada – Şuşada müxtəlif tədbirlərin açılışlarında iştirak etmişdim. O tədbirlər ki, Şuşanın Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə məxsus olmasını bir daha təsdiqləyir. Amma, eyni zamanda, hər dəfə Şuşada hansısa tədbir nəzərdə tutulduqda böyük həvəslə, böyük sevgi ilə, məhəbbətlə Şuşaya gəlirdim və hesab edirdim ki, bu günü də mən məhz burada - Şuşada hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etməliyəm və bunu edirəm.

Bu gün bir şeyə kədərlənirəm ki, atam bu günü görə bilməyib. Ancaq bilirəm ki, onun ruhu şaddır. Necə ki, Vətən həsrəti ilə yaşamış və həyatdan getmiş, azad edilmiş bu torpaqları görməyən minlərlə, on minlərlə məcburi köçkünlərin ruhu şaddır, şəhidlərimizin ruhu şaddır. Biz şəhidlərimizin qanını yerdə qoymadıq, qanını aldıq və əcdadlarımızın ruhunu şad etdik.

Bu il "Xarıbülbül" festivalında Ulu Öndərin Şuşa haqqında tarixi sözlərinin bir hissəsi videoformatda təqdim edildi. Hər birimiz o anları xatırlayır. Necə böyük inamla, necə böyük sevgi ilə Heydər Əliyev deyirdi ki, biz Şuşaya qayıdacağıq, inanın ki, qayıdacağıq. O, özü inanırdı, bizi də inandırırdı. Bizə də onun inamı, xalqın iradəsi əlavə güc verdi və bu gün biz buradayıq, bu müqəddəs torpaqdayıq. Qeyd etdiyim kimi, bundan sonra bu torpaqlarda Azərbaycan xalqı əbədi yaşayacaq, bundan sonra Qarabağda Azərbaycan muğamı əbədi səslənəcəkdir.

Əziz bacılar və qardaşlar, bütün xoş sözlərə, bütün təbriklərə görə sizə bir daha öz dərin təşəkkürümü bildirmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, bundan sonra da eyni əzmkarlıqla, eyni qətiyyətlə ölkə maraqlarının keşiyində duracağam, sizin dəstəyinizlə biz yeni böyük uğurlara imza atacağıq.

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

***

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Yuxarı Gövhər Ağa məscidini ziyarət ediblər.

# "DİNLƏRARASI DİALOQ: QLOBAL TƏHLÜKƏSİZLİYİN VƏ MƏNƏVİ İNTİBAHIN QARANTI KİMİ"






Dekabrın 7-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı, Azərbaycanın Avropa İttifaqı yanında Nümayəndəliyi və Azərbaycanın Belçikadakı səfirliyinin dəstəyi ilə "Dinlərarası dialoq: qlobal təhlükəsizliyin və mənəvi intibahın qarantı kimi" adlı beynəlxalq videokonfrans keçirilib.




DQİDK sədri Mübariz Qurbanlı açılış nitqi ilə çıxış edərək "Dinlərarası dialoq: qlobal təhlükəsizliyin və mənəvi intibahın qarantı kimi" adlı beynəlxalq videokonfransın təşkilində əsas məqsədin müasir dövrdə dünyada dini-etnik zəmində ayrı-seçkilik və radikalizm halları, onların mənfi təsirlərinin qarşısının alınmasında birgə həll yollarının axtarılması, eləcə də bu istiqamətdə ümumi fikir mübadiləsinin aparılması olduğunu qeyd edib. Tədbir iştirakçılarını ölkəmizin dövlət-din münasibətləri modeli, dini mühiti, müxtəlif dini konfessiyalara göstərilən diqqət və qayğı barədə məlumatlandıran Komitə sədri Azərbaycanın dini, irqi və etnik zəmində ayrı-seçkilik, anti-semitizmin heç vaxt qeydə alınmadığı dövlətlər sırasında mühüm yer tutduğunu vurğulayıb. Müasir dünyamızda dinlərarası münasibətlər və dialoqun əhəmiyyətini nəzərə çatdıran Mübariz Qurbanlı bəzən bu məsələ ilə bağlı ortaya çıxan ikili standartlar mövqeyinin yolverilməzliyinə, fərqli dini-mədəni dəyərlərə tolerant münasibətin vacibliyinə diqqət çəkib. Bu sahədə Azərbaycanın təcrübəsini paylaşan DQİDK sədri qeyd edib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları, Dünya dini liderlərinin sammitləri, Bakı Beynəlxalq Humanitar forumları, Qlobal Bakı forumları, BMT-nin Sivilizasiyalar Alyansının forumları kimi mötəbər tədbirlərin Bakı şəhərində keçirilməsi həm də Azərbaycan dövlətinin dinlərarası dialoqun inkişafı sahəsində apardığı siyasətə beynəlxalq dəstəyin ifadəsidir. M.Qurbanlı parlaq qələbə ilə nəticələnən 44 günlük Vətən müharibəsində Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi, Müzəffər Azərbaycan Ordusunun əzmi nəticəsində Azərbaycanın tarixi ərazilərini işğaldan azad etdiyini vurğulayıb. Eyni zamanda, iştirakçıların diqqətini ermənilərin Qarabağ və ətraf rayonların işğalı zamanı törətdiyi vandalizm aktları, Azərbaycan xalqına məxsus olan mədəni-dini irsi yerlə-yeksan etməsi, Qafqaz Albaniyasına aid tarixi-dini abidələrin daxili və xarici görkəmlərinin dəyişdirilərək qriqoriyanlaşdırması kimi faktlara yönəldib. Komitə sədri dinlərin insanlara verəcəyi əsas töhfənin onlar arasında vəhdət və harmoniyanın təmin edilməsi olduğunu diqqətə çatdıraraq, dini liderlər tərəfindən irqi, dini ayrı-seçkilik, ekstremizm və separatizmin tənqidinə yönəlik çağırışlar edilməsinin zəruriliyini vurğulayıb.

Azərbaycan Respublikasının Belçika Krallığındakı fövqəladə və səlahiyyətli səfiri və Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı Vaqif Sadıqov bildirib ki, bu konfrans dinlərarası münasibətlərə olan marağın və dünya miqyaslı təhlükəsizliyin, eləcə də sabitliyin qorunmasında dialoqun rolunun daha bir sübutudur. O qeyd edib ki, Azərbaycan bu sahəyə böyük önəm verən ölkədir və uzun müddətdir ki, dinlərarası dialoq sahəsində beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi üçün müxtəlif forumlara, çoxtərəfli görüşlərə ev sahibliyi edir. Səfir qeyd edib ki, dinlərarası dialoq sahəsində narahatlıq doğuran məsələlərin səbəblərinin araşdırılması ksenofobiya, anti-semitizm, eləcə də müsəlmanlara, xristianlara və digər dinlərin nümayəndələrinə qarşı qərəzli münasibətin, dini ayrı-seçkiliyin qarşısının alınmasının əsas yollarından biridir. Dövlətimiz həm İslam Əməkdaşlıq Təşkilatı, həm də Avropa Şurasının üzvü kimi müxtəlif imkanlardan istifadə edərək, sivilizasiyalararası dialoqun dərinləşdirilməsi və möhkəmləndirilməsinə öz töhfəsini verir. Bu istiqamətdə BMT tərəfindən yüksək qiymətləndirilən Bakı prosesini nümunə göstərmək olar.

Avropa Parlamenti-Avropa Xalq Partiyasının Mədəniyyətlərarası və Dinlərarası Dialoq üzrə İşçi Qrupunun həmsədri Yan Olbrixt bildirib ki, dini sahədə dialoq konsepsiyası çox önəmlidir. Dinlərarası dialoq fəaliyyətləri üçün tolerantlıq və dözümlülük ənənələri zəngin olan ölkə və regionların təcrübəsi böyük əhəmiyyət kəsb edir.

Avropa İttifaqı Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi Yelena Zovko (Željana Zovko) çıxışında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun rəhbərliyi ilə dini konfessiya təmsilçilərindən ibarət Azərbaycan nümayəndə heyətinin 2018-ci ildəki Brüssel səfərini dinlərarası dialoqun məqbul nümunəsi kimi dəyərləndirib. O, son illər bu mövzunun Cənubi Qafqazda aktuallıq qazandığını, keşməkeşli günlərdə tolerantlığın münaqişələrin qarşısının alınmasında rolunu nəzərə alaraq təbliğ və təşviq edilməsinin önəmini xüsusi olaraq vurğulayıb.

DQİDK-nın Xarici əlaqələr şöbəsinin müdiri Əli Həziyevin moderatorluğu ilə keçirilən videokonfransın birinci hissəsində çıxış edən DQİDK sədrinin müavini Səyavuş Heydərov siyasi, iqtisadi, ideoloji, dini maraqlar zəminində sivilizasiyalararası ziddiyyətlərə rəvac verən, ümumbəşəri dəyərləri zədələyən konfliktlərlə dolu olan, qlobal təhlükəsizlik problemləri ilə üz-üzə qalan bir dünyada münaqişələrin aradan qaldırılması, dini harmoniya və barışın yaradılması üçün göstərilən səylərin uğursuzluğundan danışıb. Bu uğursuzluğun başlıca səbəbinin mənəvi sferadakı böhran olduğunu vurğulayan sədr müavini problemdən çıxmaq üçün dinlərarası və mədəniyyətlərarası dialoqa nail olmaq, sülh, əmin-amanlığı bərqərar etmək üçün bütün beynəlxalq təşkilatların, nüfuzlu dini mərkəzlərin, ən əsası, ölkələrin səylərinin birləşdirilməsinin vacibliyindən bəhs edib.

Milli Məclisin üzvü Ceyhun Məmmədov bildirib ki, mədəniyyətlərin müxtəlifliyini qəbul etməyən, digər dinlərin nümayəndələrinin adət-ənənələrinə, həyat tərzinə və düşüncələrinə hörmətlə yanaşılmayan cəmiyyətlərdə sabitliyə və inkişafa nail olmaq qeyri-mümkündür. Deputat, həmçinin qədim zamanlardan müxtəlif dinlərin qovuşduğu məkan olan, ayrı-ayrı inanclara etiqad edən insanların daima sülh və əmin-amanlıq şəraitində yaşadığı Azərbaycanın öz tolerantlıq ənənələrini bundan sonra da qoruyub saxlayaraq gələcək nəsillərə çatdıracağını və bu ənənənin zəiflədilməsinə yönələn bütün cəhdlərin qarşısını qətiyyətlə alacağını diqqətə çatdırıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi Əliheydər Zülfüqarov bildirib ki, Azərbaycan Respublikasının din sahəsində apardığı siyasəti təqdirəlaiq nümunə hesab etmək olar. Çıxışçı Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin tarixi-mədəni irsin və milli-mənəvi dəyərlərin dirçəldilməsinə, qorunub saxlanmasına daim böyük önəm verməsindən də danışıb. Bildirib ki, Ümummilli Liderimizin cəmiyyətdə dinin rolu və dövlət-din münasibətlərinin milli dövlətçilik maraqları baxımından tənzimlənməsi sahəsində əsasını qoyduğu müdrik siyasi xətt bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Rusiya Müftilər Şurasının və Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri Ravil Qaynutdin dinlərarası dialoqun təşkili üçün göstərdiyi təşəbbüslərdən dolayı Azərbaycan Respublikasına minnətdarlığını ifadə edib. Dini liderlərin qlobal təhlükəsizlik naminə əməkdaşlıq etmələrinin vacibliyini bildirən R.Qaynutdin həmkarlarını dünya miqyasında ümumbəşəri dəyərlərin, multikulturalizm, həmrəylik ideyalarının təbliğində birgə olmağa səsləyib.

Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin Dini İşlər üzrə müşaviri Zeki Yavuzyılmaz qeyd edib ki, türk mədəniyyətinin ən önəmli xüsusiyyətlərindən biri də birgəyaşayış vərdişinə sahib olmasıdır. O, dialoq mühitinin formalaşdırılmasının missionerliklə qarışdırılmamasının labüdlüyünü dilə gətirərək bu prosesin müxtəlif dinlərə mənsub şəxslərin inancına hörmət çərçivəsində həyata keçirilməsinin önəmini vurğulayıb.

Beynəlxalq Bəhai İcmasının Brüssel Bürosu - Avropa Şurası, Avropa İttifaqı və ATƏT üzrə nümayəndəsi xanım Raşel Bayani vurğulayıb ki, bizim səylərimiz dialoq çərçivəsindən kənara çıxmalıdır. Biz dini icmalar arasında dərin dostluq və mehriban əməkdaşlıq əlaqələrini inkişaf etdirməliyik.

Moskva Patriarxlığının Xarici Kilsə Əlaqələri İdarəsinin sədr müavini Arximandrit Filaret Bukekov təmsil etdiyi qurumun sədri Mitropolit Hilarionun (Qriqori Valerieviç Alfeyev) tədbirə ünvanlandığı rəsmi müraciətini oxuyub.

"Həyat sözü" Beynəlxalq Assosiasiyasının İdarə Heyətinin sədri Kristian Akerhielm etnik mənsubiyyət və inancın çox vaxt insanların əziyyət çəkdiyi təqiblər və ya təmizlənmələr üçün bəhanə kimi istifadə edilməsinin qəbuledilməz hal olduğunu deyib.

Avropa Ravvinləri Konfransının (CER) Prezidenti Baş ravvin Pinças Qoldşmit, Bolqarıstan Respublikası Müsəlman icmasının baş müftisi Mustafa Alış Hacı və Azərbaycanın Alban-Udi Xristian dini icmasının rəhbəri Robert Mobili də çıxışlarında beynəlxalq sabitliyə və təhlükəsizliyə ciddi təhdid olan ksenofobiya, islamofobiya, xristianofobiya, antisemitizm kimi təhlükələrin qarşısının alınması üçün dini liderlərin birgə səylərinin artırılmasının və qlobal dialoqun gücləndirilməsinin vacibliyini bir daha bəyan ediblər.

"Tolerantlıq işığında dini və mədəni irsin qorunması" mövzusuna həsr edilən ikinci hissədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı tolerantlıq, birgəyaşayış

davamı səh. 3

# "DİNLƏRARASI DİALOQ: QLOBAL TƏHLÜKƏSİZLİYİN VƏ MƏNƏVİ İNTİBAHIN QARANTI KİMİ"

əvvəli səh. 2

mədəniyyəti, qloballaşma və onun fəsadlarından, həmçinin dünyada baş verən müharibə və münaqişələr, konfessiyalar arasındakı ziddiyyətlərdən danışıb. Bildirib ki, dünyada sülh və sabitliyin bərqərar edilməsi üçün müxtəlif mexanizm və təkliflər verilə bilər, ancaq bütün hallarda dəyişməyən bir həqiqət var: başəri sülhün ilk şərti fərqli inanca və etnik mənsubiyyətə malik insanlar arasında dözümlülüyü və birgəyaşayış mədəniyyətini bərqərar etməkdir.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Qəmərxanım Cavadlı ölkəmizdə mövcud olan tolerantlıq mühiti barədə danışıb. Qafqazın ən uzunömürlü dini təsisatlarından olan, bölgə müsəlmanlarının tarixi-dini mərkəzi sayılan Qafqaz Müsəlmanları İdarəsi barədə də məlumat verən sədr müavini müsəlman idarəsində səlahiyyət daşıyan qadın olaraq, Azərbaycanda qadın hüquqlarına, dini mühitə, ən əsası, dini mühitin demokratikləşməsinə göstərilən diqqət barədə məlumat verib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov Azərbaycanın dinlərarası dialoq platformalarında təcrübəsi, ölkəmizin multikulturalizm ənənələrinin təbliği, Azərbaycanın milli kimliyindən və dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın Vətəni olması, müxtəlif millətlərin və dinlərin nümayəndələrinin min illərlə ölkəmizdə dost və qardaş kimi yaşadıqları barədə danışıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun İcraçı Direktoru Mehman İsmayılov tolerantlığın tarixi, özündə bir çox dəyəri ehtiva edən dini və mədəni irs barədə məlumat verib, bu gün urbanizasiyanın, texnoloji inkişafın, müxtəlif iqtisadi və sosial layihələrin, ümumilikdə isə modernləşmənin təhdid etdiyi tarixi-dini və mədəni irsin qorunması məsələsinin aktuallığından danışıb.

Beynəlxalq Bibliya Cəmiyyətlərinin Baş Koordinatoru Dominik Donzelot ölkəmizdə xidmətdə olarkən canlı şahidi olduğu tolerant və multikultural dəyərlərimizdən danışıb. Xalqımızın bütün mədəniyyətlərə və ənənələrə sərgilədiyi tolerantlıq ruhunu yüksək qiymətləndirib.

Avropa Vineyard Xristian dini icmasının Türkiyə və Qafqaz üzrə rəhbəri Levent Kınran bildirib ki, siyasətin kilsəyə və ya əksinə kilsənin siyasətə qarışmasına imkan verilməməlidir. Çıxışçı bu səpkili layihələrin dindən alət kimi istifadə edilməsinin qarşısının alınmasında faydalı olacağına ümidvarlığını ifadə edib.

Mədəniyyət Nazirliyinin Beynəlxalq təşkilatlarla əməkdaşlıq şöbəsinin sektor müdiri Araz Bağırlı, Avropa Yəhudiləri Bakı dini icmasının ravvini Şneor Seqal, Yevangelist-Lüteran Kilsəsinin Gürcüstan və Cənubi Qafqaz üzrə rəhbəri Yepiskop Markus Şox, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksi Nikonorov, Bakı şəhəri Dağ Yəhudilərinin dini icmasının sədri Milix Yevdayev, Azərbaycandakı Katolik Kilsəsinin Apostol Prefekturasının Ordinarisi yepiskop Vladimir Fekete, Bakıdakı "Azərbaycan Bibliya Cəmiyyəti" Xristian dini icmasının rəhbəri Rasim Xəlilov cəmiyyətimizdə dini konfessiyaların səmərəli fəaliyyətinin həyata keçirilməsi, həmçinin onların cəmiyyət və dövlət həyatında fəal iştirakı üçün yaradılan lazımi şəraitdən, dini məbədlərə verilən dəyərdən söz açıblar.

Beynəlxalq tədbir mövzu ətrafında müzakirələrlə başa çatıb.

# BAKIDA "PREZİDENT İLHAM ƏLİYEVİN SİYASƏTİ: BİZ BİRLİKDƏ GÜCLÜYÜK!" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB



Dekabrın 22-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Prezident İlham Əliyevin siyasəti: biz birlikdə güclüyük!" mövzusunda konfrans keçirilib.

Konfransda DQİDK və tabeliyindəki qurumların rəhbər şəxsləri, Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsinin təmsilçiləri, dini konfessiya rəhbərləri iştirak ediblər.

Konfrans çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi əsasında Vətən müharibəsində vahid amal uğrunda dəmir yumruq kimi birləşən müxtəlif xalqların və dinlərin mənsubu olan azərbaycanlıların birliyindən, həmrəyliyindən bəhs edən "Dəmir yumruq" sənədli filmi də nümayiş olunub.

Tədbirdə çıxış edən komitə sədri Mübariz Qurbanlı bildirib ki, ötən əsrin 90-cı illərinin sonlarında müstəqilliyini bərpa edən Azərbaycan dövlətinin qarşısında çox mühüm vəzifələr dururdu. Bunlar iqtisadiyyat, beynəlxalq münasibətlər, ölkədaxili siyasət, o cümlədən milli-mənəvi dəyərlərimiz və ideoloji fəaliyyətlə bağlı idi. Bu vəzifələr məhz Ulu Öndərin siyasi hakimiyyətə qayıdışından sonra həyata keçirilməyə başladı. Azərbaycanda dövlət siyasətinin mühüm istiqamətlərindən biri də dövlət-din modelinin müəyyənləşdirilməsi idi. Müstəqilliyini bərpa etmiş Azərbaycanın ilk Konstitusiyasında nəzərdə tutulan əsas prinsiplərdən biri dünyəvilik idi. Dünyəvilik Azərbaycanda dövlət-din modelinin əsasını təşkil etdi ki, bütün bunlar da ölkə qanunvericiliyində, o cümlədən dini etiqad azadlığında əksini tapıb. Azərbaycan Konstitusiyasında vicdan azadlığı təsbit edilib.

Komitə sədri diqqətə çatdırıb ki, Azərbaycanın dövlət–din modeli hazırda dünyada örnək kimi öyrənilir. Bu da təsadüfi deyil. Çünki Azərbaycan İslam dünyasının bir parçasıdır. Ölkə əhalisinin 96 faizi müsəlmandır. Bununla yanaşı, Azərbaycanda müxtəlif xalqlarla bərabər, fərqli konfessiyaların nümayəndələri bir ailə kimi yaşamaqdadır. Həmçinin Vətən müharibəsində Azərbaycan xalqı və ölkədə fəaliyyət göstərən dini konfessiyalar vahid bir yumruq ətrafında birləşə bilmişdi ki, bu da ölkəmizdə aparılan düzgün din siyasətinin məntiqi nəticəsi idi. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din modeli yeni dövrün çağırışlarına uyğun olaraq daha da inkişaf etdirilib.

Tarixi-dini abidələrimizin, o cümlədən məscid, kilsə, sinaqoqların bərpası və yenidən qurulması, yeni ibadət evlərinin inşasının Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin tərkib hissəsi olduğunu vurğulayan Komitə sədri Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən 30 illik işğaldan azad olunan ərazilərimizdə ermənilərin dağıtdığı dini abidələrin, o cümlədən məscidlərin bərpasına dair görülən işlərdən də danışıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Hacı Salman Musayev deyib ki, xalqımızın öz Lideri ətrafında sıx birləşərək rəşadətli ordumuzun yenilməz şücaəti və şəhidlərimizin qanı bahasına qazanılan böyük Zəfər yolu böyük məşəqqətlərdən keçib. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqilliyimizin əbədi olması uğrunda mücadiləmiz böyük siyasətçi, Prezident İlham Əliyevin davamlı səyləri nəticəsində yüksələn xətt üzrə inkişaf edərək bizi Qələbəyə çatdırıb. Heydər Əliyevin məktəbinə, onun ali mənəviyyat ruhuna sadiqlik Prezident İlham Əliyevin dövlətçilik xəttinin uğurunu təşkil edən başlıca amillərdəndir. Bu siyasətin tərkib hissəsi olan nümunəvi dövlət-din münasibətlərindəki uğurlar din xadimləri üçün xüsusi olaraq önəmli və dəyərlidir. "Dövlətimizin başçısının fəaliyyətini səciyyələndirən başlıca cəhət sözlə işin vəhdəti, verilən vədlərə sadiq çıxaraq onlara əməl olunmasıdır". –deyə QMİ rəsmisi bildirib.

Milli Məclisin deputatı Ceyhun Məmmədov vurğulayıb ki, Azərbaycan dünyada tolerantlıq ideyalarını tətbiq edən nümunəvi ölkə kimi tanınır. Bu uğura Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan, Prezident İlham Əliyevin uğurla və böyük uzaqgörənliklə davam etdirdiyi siyasət nəticəsində nail olunub. Ölkə ərazisində yerləşən dini abidələrin qorunması, bərpası və yenidən tikilərək inanc sahiblərinin ixtiyarına verilməsi, dövlət-din münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsi və digər sahələrdə görülən işlər - dini təhsilin keyfiyyət və kəmiyyətcə artırılması istiqamətində verilən qərarlar, sərəncamlar, dövlətin bu sahədə atdığı addımlar, keçirdiyi tədbirlərə diqqət çəkən millət vəkili DQİDK və onun tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını Azərbaycanda dini sahədə həyata keçirilən əsaslı islahatların məntiqi nəticəsi kimi dəyərləndirib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, Azərbaycan tarixində 44 günlük Vətən müharibəsindəki parlaq qələbədən sonra yeni səhifə açılıb. Vətən müharibəsində ölkəmizə yönəlik xarici təhdidlərin milli birliyi, həmrəyliyi pozmaq niyyəti daşıdığını qeyd edən R.Həsənov Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində formalaşan multikultural mühitin bu mənfur planı iflasa uğratdığını vurğulayıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov Prezident İlham Əliyevin dilimizin, dinimizin, mədəniyyətimizin, ümumilikdə dəyərlər sistemimizin qorunması və inkişafına göstərdiyi xüsusi diqqət və qayğı ilə bağlı məqamlara toxunub.

Konfransda, həmçinin, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Rus-Provoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi, baş rahib Arximandrit Aleksiy, Roma Katolik kilsəsinin Azərbaycandakı apostol prefekturasının yepiskopu Vladimir Fekete, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Azərbaycan Respublikası Alban-Udi xristian dini icmasının sədri Robert Mobili, Azərbaycan İlahiyyat İnstitutunun prorektoru Mirniyaz Mürsəlov çıxış ediblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət siyasətinin əsas fəlsəfəsinə çevrilən "Biz birlikdə güclüyük!" şüarının bu gün xalqın qalib ruhunun güzgüsü olmasının, dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən milli həmrəylik siyasətinin önəmi və möhkəmləndirilməsinin əhəmiyyəti barədə fikirlərini səsləndiriblər, eyni zamanda dini konfessiya rəhbərləri dinlərə və dinlərarası dialoqun inkişafına, bütün dinlərə aid məbədlərin bərpasına verdiyi dəstəyə, önəmə görə Prezident İlham Əliyevə təşəkkürlərini ifadə ediblər.

Tədbirdə, eyni zamanda Azərbaycan İlahiyyat İnstitutu tərəfindən nəşr edilən dövlət başçısının 6 dildə xalqımızın milli-mənəvi dəyərləri haqqında fikirlərini ehtiva edən "Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimiz haqqında fikirləri" adlı kitabın təqdimatı keçirilib.

# MÜZƏFFƏR LİDER



Müdrik şəxsiyyətlər tarixi proseslərə mühüm təsir göstərərək onların inkişaf istiqamətlərini müəyyənləşdirir, öz fəaliyyətləri ilə təmsil etdikləri xalqın qürur mənbəyi kimi çıxış edirlər. Onlar parlaq ideyaları ilə cəmiyyətin tərəqqisində həlledici rol oynayırlar. Belə şəxsiyyətlərdən biri müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevdir.

Bu fikirlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının "Müzəffər Lider" sərlövhəli məqaləsində yer alıb.

Məqalədə bildirilib ki, Prezident İlham Əliyev müdrik Liderə məxsus uzaqgörənliklə ölkəmizin həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini öz üzərinə götürərək xalqımızın maraqlarına əsaslanan siyasət aparır. Azərbaycan Prezidenti sübut edir ki, Liderin malik olduğu nüfuz özündə yüksək şəxsi keyfiyyətlərin, mənəvi-əxlaqi, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir. Dövlətimizin başçısının ölkəmizdə və dünyada böyük nüfuz qazanması onun intellektual potensial, mənəvi zənginlik və səriştəli idarəetmə bacarığı kimi meyarlara əsaslanan liderlik keyfiyyətlərindən irəli gəlir. Bütün bunlar Prezident İlham Əliyevin cəmiyyətdə gedən proseslərə realist mövqedən yanaşmasında, ölkəmizin hərtərəfli inkişafına dair dövlət proqramları, konsepsiyaları və strategiyaları uğurla həyata keçirməsində mühüm əhəmiyyət daşıyır. Siyasəti mükəmməl elmi-nəzəri bazaya və konseptual əsaslara söykənən Azərbaycan Prezidentinin qəbul etdiyi qərarların, yerinə yetirdiyi vəzifələrin milli və qlobal əhəmiyyəti həm yerli, həm də beynəlxalq ictimai rəydə yüksək qiymətləndirilir.

Azərbaycan Prezidenti ictimaiyyət nümayəndələri ilə mütəmadi olaraq birbaşa təmasların yaradılmasına, onları narahat edən, düşündürən məsələlərə həssaslıqla yanaşmağa böyük əhəmiyyət verir. Prezident İlham Əliyevin uzaqgörən siyasətini təhlil etdikdə onun güclü siyasi iradəyə və idarəetmə bacarığına malik, xalqına və dövlətinə bağlı müdrik Lider olduğunu görürük.

Prezident İlham Əliyev fəaliyyətini Azərbaycanın tərəqqisinə həsr edən Lider kimi xalqımızın böyük rəğbətini qazanıb. Onun dünyada gedən geosiyasi proseslərə praqmatik mövqedən yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Prezident İlham Əliyev təcrübəli siyasətçi kimi hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirib gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb vəziyyətlərdə düzgün qərarlar qəbul etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur.

Ümumdünya tarixi təcrübələri göstərir ki, xalqların inkişafı, milli-mənəvi və əxlaqi dəyərlərin qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi kimi şərəfli missiyanın yerinə yetirilməsi ölkəyə rəhbərlik edən şəxsiyyətin liderlik keyfiyyətləri ilə sıx şəkildə bağlıdır. Bu baxımdan Prezident İlham Əliyev Azərbaycanın hüquqi, demokratik və dünyəvi dövlət kimi tərəqqisi, xalqımızın milli-mənəvi dəyərlərinin zənginləşməsi və sair məsələlərə dövlətin inkişaf strategiyasının tərkib hissəsi kimi baxaraq məqsədyönlü siyasət aparır. Xalqımızın milli kimliyinin qorunması üçün milli şüurun və özünüdərkin güclənməsi daim diqqət mərkəzində saxlanılır.

Prezident İlham Əliyevin siyasəti özündə Ulu Öndər Heydər Əliyevin siyasi irsini, demokratik dövlətçilik ənənələrini və Azərbaycanın tərəqqisini nəzərdə tutan strateji baxışları ehtiva edir. Milli maraqlara əsaslanmaq, davamlı inkişaf, multikultural, tolerant dəyərlərə sadiqlik və s. Prezident İlham Əliyevin siyasətinin əsas xüsusiyyətlərindəndir. Dövlətimizin başçısının cəmiyyətin inkişaf qanunauyğunluğunu və ictimai şüurda baş verən dəyişiklikləri daim diqqət mərkəzində saxlaması onun Lider kimi tarixi nailiyyətlər əldə etməsini şərtləndirir.

Prezident İlham Əliyevin liderliyi dərin və universal biliklərə, işgüzarlığa, uzaqgörənliyə, mahir diplomatlığa, həmsöhbətinə güclü təsir etmək qabiliyyətinə malik olmaq kimi keyfiyyətlərlə bağlıdır. Eyni zamanda, xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət kimi cəhətlər Prezident İlham Əliyevin şəxsiyyətini səciyyələndirən xüsusiyyətlərdəndir. Azərbaycan Prezidenti ümummilli məsələləri böyük peşəkarlıqla həll edən, tarixi əhəmiyyət daşıyan addımları ilə xalqımızın həyatında əsaslı dəyişikliklər yaradan Liderdir. Prezident İlham Əliyevin həm milli, həm də qlobal məsələlərin həlli istiqamətində göstərdiyi fəaliyyət Azərbaycan tarixinin unudulmaz səhifələrini təşkil edir, bəşəriyyətin inkişafına verdiyi töhfələrlə yaddaşlarda dərin iz buraxır.

Prezident İlham Əliyev ictimai mühitə açıqlıq, yüksək fəallıq, özünəinam, məqsədyönlülük kimi liderlik keyfiyyətlərinə malikdir. Məhz bunlar Prezident İlham Əliyevin nəinki Azərbaycan vətəndaşları, həmçinin xarici ölkələrin dövlət başçıları və tanınmış siyasətçiləri ilə qarşılıqlı hörmətə əsaslanan münasibətlərinin yaranmasında mühüm rol oynayır. Dünyanın tanınmış dövlət xadimləri və nüfuzlu politoloqları Prezident İlham Əliyevin möhkəm iradəli, hədəflərinə çatmaq üçün qətiyyətli mübarizə aparan Lider olduğunu dəfələrlə bildirmişlər.

Yazıda qeyd olunur ki, Prezident İlham Əliyev ictimai münasibətləri yüksək peşəkarlıqla tənzimləmək, idarə etmək qabiliyyətinə malikdir və qəbul etdiyi qərarların, yerinə yetirdiyi vəzifələrin əhəmiyyəti ona həm yerli, həm də beynəlxalq ictimai rəydə böyük nüfuz qazandırır. Azərbaycan Prezidenti yeniliyin, ümumbəşəri dəyərlərin və təcrübənin ictimai həyatda tətbiqinin fəal tərəfdarı kimi çıxış edən islahatçı Liderdir. Onun apardığı məqsədyönlü siyasətin nəticəsində Azərbaycan davamlı inkişaf yolu ilə irəliləyir. Son 18 il ərzində Azərbaycan dövlətinin bütün sahələrində əldə olunan tarixi nailiyyətlərin əsasında Prezident İlham Əliyevin yüksək liderlik keyfiyyətləri dayanır.

Tarixi təcrübələrə görə, ictimai proseslərə ciddi təsir göstərən amillər içərisində şəxsiyyətin fəaliyyəti mühüm tutur və xalqın maraqları onun vasitəsilə təcəssüm edir. Mütərəqqi şəxsiyyətlə tarix arasındakı qarşılıqlı əlaqə, onların bir-birinə təsiri cəmiyyətin inkişafına təkan verir. Eyni zamanda, ictimai-siyasi qüvvənin aparıcı mövqe tutması ona rəhbərlik edən şəxsiyyətin yüksək liderlik keyfiyyətlərindən irəli gəlir. Bu aspektdən yanaşsaq görərik ki, Azərbaycan dövlətinin tərəqqisinin əsasında Prezident İlham Əliyevin görkəmli şəxsiyyət və Lider kimi ümummilli maraqlara söykənən vəzifələri uğurla yerinə yetirməsi dayanır. Müxtəlif illərdə keçirilmiş prezident seçkilərində Prezident İlham Əliyevin böyük səs çoxluğu ilə qələbə qazanması Azərbaycan xalqının öz Liderinə böyük inam və etimadından irəli gəlir.

davamı səh. 5

# MÜZƏFFƏR LİDER

əvvəli səh. 4

Bildirilib ki, müasir dövrdə Azərbaycan bir çox postsovet respublikaları ilə müqayisədə həm ümumi iqtisadi gücünə, həm də iqtisadi kəmiyyət və keyfiyyət göstəricilərinə görə qabaqcıl yer tutur. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının həyata keçirilməsi nəticəsində şəhər və rayonların infrastruktur təminatı yaxşılaşır, sahibkarlığın inkişafı stimullaşdırılır, əhalinin məşğulluq səviyyəsi yüksəlir. Azərbaycanla dünya dövlətləri arasında ticarət-iqtisadi əlaqələrin möhkəmlənməsi ölkəmizin geoiqtisadi maraqlarının təmin edilməsi baxımından vacib əhəmiyyət daşıyır. Respublikamız böyük enerji-nəqliyyat layihələrinin əsas təşəbbüskarlarından biri kimi regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır. Prezident İlham Əliyevə dərin inam və etibardan irəli gələrək Azərbaycan iqtisadiyyatına böyük həcmdə xarici sərmayələrin qoyulması qeyri-neft sektorunun və müxtəlif sənaye sahələrinin inkişafına təsir göstərən amillərdəndir.

Əhalinin sosial müdafiəsinin təmin olunması və insan kapitalının inkişafı Prezident İlham Əliyevin apardığı siyasətin prioritet istiqamətlərindən birini təşkil edir. Bundan irəli gələrək, ölkə vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi və əhalinin azgəlirli təbəqəsinin sosial-iqtisadi rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. Əhalinin gəlirlərinin artırılması və minimum əməkhaqqının ölkə üzrə yaşayış minimumuna çatdırılması istiqamətində məqsədyönlü dövlət siyasəti həyata keçirilir.

Prezident İlham Əliyevin siyasətinin əsas istiqamətlərindən birini xalqımızın qədim və zəngin milli-mənəvi dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi təşkil edir. Ölkəmizdə mövcud olan tolerant və multikultural mühit dini-mədəni müxtəlifliyin qorunması, dünyəvi dövlət-din modelinin möhkəmlənməsi üçün əlverişli şərait yaradır. Azərbaycanın dünyaya multikulturalizmin inkişaf etdiyi dövlət kimi tanıdılması sahəsində mühüm işlər görülür.

Dinlərarası və mədəniyyətlərarası dialoqun qlobal səviyyədə təşviqi istiqamətində məqsədyönlü dövlət siyasəti həyata keçirilir. Azərbaycan multikulturalizmin və tolerant dəyərlərin inkişafına həsr olunmuş xeyli sayda beynəlxalq tədbirlərə ev sahibliyi edir. Milli-dini münasibətlər sahəsində Prezident İlham Əliyevin apardığı siyasət xalqımız tərəfindən dəstəklənir. Azərbaycanda yaşayan milli-etnik qruplar ümumi birgəyaşayış qaydaları əsasında özlərinin mədəni-mənəvi dəyərlərini və etnoqrafik xüsusiyyətlərini qoruyub saxlayırlar. Onlar azərbaycançılıq məfkurəsi ətrafında birləşməklə ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edirlər.

Prezident İlham Əliyevin siyasətində hər bir fərdin, sosial qrupun və bütövlükdə cəmiyyətin maraqlarının nəzərə alınması milli birliyi möhkəmləndirir. Azərbaycan dövlətinin davamlı inkişafında vətəndaş birliyinin böyük əhəmiyyəti var. Prezident İlham Əliyevin milli və siyasi həmrəylik simvoluna çevrilmiş, ölkəmizdə yeni siyasi konfiqurasiyanın möhkəmlənməsinə istiqamətlənmiş siyasəti ictimai rəydə yüksək qiymətləndirilir və xalqımız tərəfindən dəstəklənir. Müxtəlif ictimai-siyasi qüvvələr, dini-etnik konfessiyalar arasında konstruktiv əməkdaşlıq təmin olunur. Milli-dini münasibətlərin demokratik normalar əsasında tənzimlənməsi ölkə vətəndaşlarını milli-etnik mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq, Azərbaycan dövləti ətrafında sıx birləşdirir.

Dövlətimizin başçısı regional və beynəlxalq səviyyələrdə gedən geosiyasi proseslərlə bağlı uzaqgörən siyasət aparır. Ölkələrin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq Azərbaycan Prezidentinin siyasətinin əsas prinsiplərindən birini təşkil edir. Bu siyasətin nəticəsində ölkəmizlə dünya dövlətləri arasında qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq möhkəmlənir, xalqımızın sülh və əmin-amanlıq şəraitində yaşaması təmin olunur. Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət Azərbaycanı dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərdə vacib tərəfdaş kimi tanıdır, onun beynəlxalq təşkilatlarla əlaqələrini möhkəmləndirir. Uğurlu xarici siyasət ölkəmizə beynəlxalq aləmdə çoxlu dost dövlətlər və etibarlı tərəfdaşlar qazandırır. Müasir dövrdə beynəlxalq aləmdəki geosiyasi ziddiyyətlərə baxmayaraq, Azərbaycan davamlı inkişaf edən dövlət kimi dünya ölkələri arasında özünə layiqli yer tutur.

Yazıda vurğulanıb ki, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə nail olmaq üçün Prezident İlham Əliyev qətiyyətli və prinsipial siyasət həyata keçirib. Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə ətraflı və tutarlı faktlara əsaslanan məlumatlar çatdırılıb, problemin mahiyyətinin Ermənistan tərəfindən təhrif olunması cəhdləri ildən-ilə fiaskoya uğrayıb. Prezident İlham Əliyev münaqişənin beynəlxalq hüquqi normalar çərçivəsində nizamlanmasına çalışıb, Azərbaycanın mövqeyini dəfələrlə beynəlxalq və regional təşkilatların tribunalarından səsləndirib, Ermənistanı işğalçılıq siyasətindən əl çəkməyə, dünya dövlətlərini isə münaqişənin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırıb. Təbii ki, Ermənistanın beynəlxalq hüquqi prinsiplərə saymazyana münasibəti, Azərbaycanın haqlı tələblərinə etinasız yanaşması uzun müddət davam edə bilməzdi və bu, öz təsdiqini 44 günlük Vətən müharibəsində tapdı.

Dövlətimizin başçısının yüksək liderlik və hərbi sərkərdəlik keyfiyyətləri Vətən müharibəsində bir daha özünü göstərdi. Müharibədə xalqımız Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandan kimi prinsipial mövqeyinin, uzaqgörən diplomatiya yürütdüyünün şahidi oldu. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi nailiyyətlər və beynəlxalq arenadakı böyük nüfuzu, xalq-iqtidar birliyi Vətən müharibəsində qələbəni şərtləndirən vacib amillərdən oldu. Xüsusilə, Prezident İlham Əliyevin ordu quruculuğu sahəsində apardığı siyasətin nəticəsində müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşmışdır ki, bu da özünü erməni faşizmi üzərində şanlı Qələbə ilə sübut etdi. Ermənistan hərbi birləşmələrinin cəmi 44 gün ərzində darmadağın edilməsi xalqımızın milli qürur hissini və ləyaqətini özünə qaytardı. Dünya birliyi Vətən müharibəsində Azərbaycanın öz suverenliyini qorumağa qadir qüdrətli dövlət olduğunu gördü.

İşğaldan azad olunan torpaqlarımızda Azərbaycan Respublikasının Dövlət bayrağının dalğalanması, geniş quruculuq işlərinin aparılması, erməni vandalizminə məruz qalmış tarixi-dini abidələrimizin və məscidlərimizin bərpası hər birimizdə böyük qürur hissi yaradır. Əminik ki, bu ərazilər məhz Prezident İlham Əliyevin siyasəti sayəsində ölkəmizin ən abad guşələrindən birinə çevriləcək və keçmiş məcburi köçkün soydaşlarımız tezliklə öz doğma yurdlarına qayıdacaqlar.

"Yuxarıda göstərilənlərin ümumiləşdirilməsi sübut edir ki, Azərbaycanın tərəqqisi, xalqımızın sülh və əmin-amanlıq şəraitində yaşaması Prezident İlham Əliyevin fenomenal şəxsiyyət kimi yüksək liderlik keyfiyyətləri ilə bağlıdır. Azərbaycan Prezidenti müdrik Liderə məxsus uzaqgörənliklə milli maraqlara söykənən, xalqımızın həyatında böyük dəyişikliklər yaradan siyasət həyata keçirir. Bu siyasət özündə müdrikliyi, dövlətçilik təcrübəsini, qətiyyətli iradəni, xalqımızın və dövlətimizin inkişafına dair mütərəqqi siyasi-ideoloji baxışları birləşdirir. Bütün bunların nəticəsidir ki, Azərbaycan davamlı inkişaf edərək, dünya birliyində böyük nüfuz qazanır, xarici dövlətlər ölkəmizə hörmət və ehtiramla yanaşırlar", - deyə M.Qurbanlı məqalənin sonunda bildirib.

## DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ XVII BEYNƏLXALQ MÜSƏLMAN FORUMUNDA İŞTİRAK EDIB



Dekabrın 15-də Rusiya Federasiyasının Müsəlmanları Ruhani İdarəsi və Beynəlxalq Müsəlman Forumunun Katibliyinin birgə təşkilatçılığı ilə "Ekoloji təbliğatdan ekoloji düşüncəyədək: danışıq üslubunun optimal yolunun axtarışı" mövzusuna həsr olunmuş XVII Beynəlxalq Müsəlman Forumu keçirilib.

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi və Rusiya Müftilər Şurasının sədri, müfti Şeyx Ravil Qaynutdinin açılış nitqi ilə başlayan onlayn forumda Türkiyənin Diyanət İşləri İdarəsinin sədri Əli Ərbaş, Dinlərarası Dialoq üzrə Pontifik Şurasının prezidenti, kardinal Migel Ayuso (Vatikan), Misir, Özbəkistan, Qazaxıstan, Tacikistan, habelə digər dövlətlərin baş müftiləri, Amerika, Böyük Britaniya və digər ölkələri təmsil edən nümayəndələr, din xadimləri çıxış ediblər.

Beynəlxalq Forumda çıxış edən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdə genişmiqyaslı ekoloji tərbiyə və maarifləndirmə tədbirlərinin keçirildiyini qeyd edib. DQİDK sədri qlobal xarakter daşıyan ətraf mühitin qorunması məsələsinin həlli üçün din xadimlərinin üzərinə düşən vəzifələr, onların ətraf mühitin qorunması istiqamətində həyata keçirilən layihələrdə fəal iştirakına diqqət çəkib. Dövlət Komitəsi, Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycan İlahiyyat İnstitutu, Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən hazırlanan nəşrlər, videoçarxlar arasında din və ekologiya, islam dini və təbiətə münasibət, eləcə də bu kimi digər mövzulara yer verildiyini, televiziya kanalları, sosial medianın imkanlarından da geniş istifadə edilərək maarifləndirici fikirlərin təbliğ edildiyini bildirib. Dövlət Komitəsinin sədri, eyni zamanda 30 ilə yaxın müddət ərzində işğal altında saxlanılan, Vətən müharibəsindəki



parlaq qələbəmiz nəticəsində azad olunan Qarabağ və ətraf rayonlarda Ermənistanın törətdiyi ekoloji terror barədə danışıb. M.Qurbanlı Prezident İlham Əliyevin müəyyən etdiyi proqram üzrə işğaldan azad edilən ərazilərdə quruculuq işlərinin uğurla başlanıldığını, onların sırasında ətraf mühitin bərpasının xüsusi yer tutduğunu, Qarabağın "Yaşıl enerji" zonasına çevrilməsi istiqamətindəki irimiqyaslı layihələrin uğurla icra edildiyini forum iştirakçılarının nəzərinə çatdırıb.

Dünyanın müvafiq təşkilatlarından olan nümayəndələrin məruzələrinin maraqla qarşılandığı Forum işini müzakirələrlə yekunlaşdırıb.

# ŞƏKİDƏ "XALQIMIZIN MİLLİ BİRLİYİNİN MÖHKƏMLƏNMƏSİNDƏ MƏNƏVİ DƏYƏRLƏRİMİZİN ROLU" MÖVZUSUNDA TƏDBİR OLUB

Dekabrın 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda tədbir keçirilib.

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Şəki Şəhər İcra hakimiyyətinin başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Sadiq Yusifov, Dövlət Komitəsinin Şəki bölgəsi üzrə şöbəsinin müdiri Taleh Abdullayev, ictimaiyyət nümayəndələri, din xadimləri və gənclər iştirak ediblər.




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı dünyanın dini və məzhəb zəminində baş verən münaqişələrlə üzləşdiyi bir zamanda ölkəmizin milli, dini həmrəyliyi ilə fərqlənməsindən bəhs edib. S.Salahlı bildirib ki, multikulturalizm və tolerantlığın cəmiyyətimizin həyat tərzi olması onun yüksək mənəvi inkişafının göstəricisidir. Bəşəri dəyərlərin, birgəyaşayış mədəniyyətinin, qarşılıqlı anlayışın bundan sonra da qorunub saxlanması və inkişafı çox vacibdir. Sədrin birinci müavini onu da qeyd edib ki, cəmiyyətdə multikultural ənənələrin zəifləməsi etnik, dini, irqi zəmində qarşıdurmalara, münaqişələrə səbəb olar. Dünyanın bəzi ölkələrində radikalizm, ksenofobiya, antisemitizm, islamofobiya meyillərinin artmasına diqqəti çəkən S.Salahlı vurğulayıb ki, məhz bu səbəbdən Azərbaycan xalqının sahib olduğu mənəvi dəyərləri qorumalı və gələcək nəsillərə ötürməliyik.

Çıxış edən digər tədbir iştirakçıları respublikamızda dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsindən danışıblar. Eyni zamanda, natiqlər dini radikalizm və ekstremizmə qarşı ideoloji müstəvidə effektiv mübarizənin aparılması, ölkəmizdə tarixən mövcud olan tolerantlıq mühitinin qorunması, eləcə də müxtəlif dinlərə, məzhəblərə etiqad edən ölkə vətəndaşlarının qarşılıqlı hörmət, mehribanlıq şəraitində birgəyaşayış ənənələrinin daha da möhkəmləndirilməsindən bəhs ediblər.

# XAÇMAZDA "DÖVLƏT VƏ DİN" MÖVZUSUNDA SEMİNAR KEÇİRİLİB



Dekabrın 23-də Xaçmaz şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dövlət və din" mövzusunda seminar keçirilib.

Vətən müharibəsində həlak olan şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan seminarda Xaçmaz Rayon İcra Hakimiyyəti və yerli hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri, rayon ictimaiyyətinin nümayəndələri, eləcə də şimal bölgəsinin din xadimləri iştirak ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini çıxış edərək Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi Zəfərdən, bu qələbənin qazanılmasında Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik və uzaqgörən hərbi-siyasi gedişlərindən, Azərbaycan Ordusunun şücaətindən, həmçinin xalqımızın nümayiş etdirdiyi milli və dini həmrəylikdən bəhs edib.

Səyavuş Heydərov, eyni zamanda mövzu üzrə çıxış edərək bildirib ki, ölkəmizdə mövcud olan dövlət-din münasibətləri bütün dünyaya nümunədir. Azərbaycanın çoxkonfessiyalı respublika olduğunu diqqətə çatdıran sədr müavini qeyd edib ki, ölkəmizdə məscidlərlə yanaşı, xristian, yəhudi məbədləri də var. Ölkəmizdə heç vaxt milli, dini və irqi ayrı-seçkilik olmayıb və müasir dövrdə də bu zəngin ənənə dövlət tərəfindən qorunub saxlanılaraq uğurla davam etdirilir. Bu gün bütün dinlərin nümayəndələri respublikamızda öz dini ayin və mərasimlərini sərbəst yerinə yetirirlər. DQİDK-nın sədr müavini onu da vurğulayıb ki, Prezident İlham Əliyev tərəfindən uzaqgörənliklə həyata keçirilən, balanslı, qarşılıqlı maraqlara söykənərək reallaşdırılan, milli və dövlətçilik ənənələrimizin də qətiyyətlə müdafiə edildiyi siyasi kurs Azərbaycanı inkişaf etdirməklə yanaşı, həm də ölkəmizi sivilizasiyalararası mədəniyyətin və multimədəni harmoniyanın təminatçısı kimi tanıdıb.

Müzakirələrlə davam edən seminarın sonunda tədbir iştirakçıları DQİDK-nın sifarişi əsasında ərsəyə gələn "Dəmir Yumruq" sənədli filmini izləyiblər.

# "DİNİN SİYASİLƏŞDİRİLMƏSİ MİLLİ TƏHLÜKƏSİZLİYƏ VƏ MƏNƏVİ DƏYƏRLƏRƏ TƏHDİD KİMİ"

Dekabrın 1-də Şəmkir rayon Heydər Əliyev Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda seminar keçirilib.



Tədbirdə rayon hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri və din xadimləri, dini icma sədrləri iştirak ediblər.

Vətən uğrunda canından keçən şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan seminarı giriş sözü ilə açan Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev mövzunun aktuallığından danışaraq bu sahədə həyata keçirilən layihələrin zəruriliyini vurğulayıb.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov isə çıxışında ölkəmizdə dini sahəyə göstərilən diqqət və qayğıya, eyni zamanda dinin siyasiləşdirilməsinin törətdiyi fəsadlar barədə məqamlara toxunub. Bildirib ki, bütün dinlərdə saflıq və təmizlik, sülh, əmin-amanlıq və həmrəyliyə çağırışlar var. Günümüzdə dünyada dinin ictimai münasibətlərə təsiri baxımından bəzi hallarda yad dini ideologiyaların təbliği cəhdlərini müşahidə edirik. Dinin siyasiləşdirilməsi məsələsi ideoloji sahə üçün ən prioritet problemlərdən biridir. Dini radikalizm və ekstremizmin əsas metodlarından biri dinin siyasiləşdirilməsi, yaxud siyasi proseslərdə dindən bir alət kimi istifadə edilməsidir. Mənəvi duyğuların istismar vasitəsinə çevrilməsinin yolverilməz hal olduğunu qeyd edən S.Heydərov bildirib ki, siyasətin özünəməxsus prinsipləri olduğu kimi, dinin də ali dəyərləri mövcuddur. Bu iki anlayışı bir-biri ilə əlaqələndirmək dini-mənəvi dəyərlərin istismarı ilə nəticələnir. Dindən sui-istifadə etməklə siyasi maraqları təmin etməyin ürəkağrıdıcı nəticəsi Yaxın Şərqin timsalında hər kəs üçün ibrət olmalıdır. Azərbaycan xalqının tarixən dinə mənəvi prizmadan yanaşaraq, onun siyasiləşməsinin tərəfdarı olmadığını diqqətə çatdıran sədr müavini əlavə edib ki, ölkəmizdə insanların dini etiqadına ehtiram hazırda yüksək səviyyədədir. Vətəndaşlarımız vicdan azadlığı prinsiplərinə söykənərək qarşılıqlı hörmət əsasında yaşayırlar. Onun sözlərinə görə, Azərbaycan üçün dinin siyasiləşdirilməsi təhlükəsi o qədər də aktual olmasa da ölkəmizin müstəqil siyasətinə təsir etmək istəyən, onun uğurlarını həzm etməyən kənar dairələr məhz bu vasitədən istifadə etməyə çalışırlar. Dövlətimiz əlindən gələni edir ki, vətəndaşlarımızın iqtisadi-sosial vəziyyəti yaxşılaşsın, bütün azadlıqlar, o cümlədən dini etiqad azadlığı təmin edilsin. Bir vətəndaş olaraq biz də ölkə rəhbərliyinə əməli fəaliyyətimizlə kömək etməli, xüsusilə dini-ideoloji təhlükəsizliyin təminatında yaxından iştirak etməliyik.

Müzakirələrlə davam edən seminarın sonunda tədbir iştirakçıları DQİDK-nın sifarişi əsasında ərsəyə gələn "Dəmir Yumruq" sənədli filmini izləyiblər.

# YEVLAXDA "DİNİ FANATİZM, RADİKALİZM VƏ EKSTREMİZMİN MAHİYYƏTİ VƏ TƏHLÜKƏLƏRİ" MÖVZUSUNDA SEMİNAR TƏŞKİL OLUNUB

Dekabrın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən Yevlax şəhərində "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda seminar keçirilib.

Tədbirdə DQİDK-nın sədr müavini Sahib Nağıyev, Yevlax şəhər İcra Hakimiyyəti başçısının müavini İlqar Hüseynov, Komitənin Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev, şəhər idarə və təşkilatlarının əməkdaşları, eləcə də din xadimləri iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan Yevlax şəhər İcra Hakimiyyəti başçısının müavini İlqar Hüseynov Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olan inkişaf və tərəqqinin bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. İ.Hüseynov, eyni zamanda çıxışında dini fanatizm, radikalizm və ekstremizmin bu gün cəmiyyətin ən böyük bəlalarından biri olduğunu vurğulayıb, Dövlət Komitəsi tərəfindən bölgələrdə keçirilən maarifləndirici tədbirlərin əhəmiyyətini qeyd edib.

Tədbirdə çıxış edən Komitənin sədr müavini Sahib Nağıyev ölkəmizdəki nümunəvi tolerant, multikultural mühit, o cümlədən milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılmasına göstərilən diqqət və qayğı barədə danışıb. Bildirib ki, bu gün ölkəmizdə hər kəsin vicdan və din azadlığı hüququ var, heç bir irqi, milli, dini və məzhəb ayrı-seçkiliyinə yol verilmir. 44 gün davam edən və Azərbaycan dövlətinin Zəfəri ilə nəticələnən Vətən müharibəsi zamanı xalqımızın milli-dini həmrəyliyindən, ölkəmizdəki dini durumun sabitliyindən danışan sədr müavini dini fanatizm, radikalizm və ekstremizmin qarşısının alınması istiqamətində DQİDK-nın fəaliyyətinə də toxunub. S. Nağıyev Dövlət Komitəsi tərəfindən "Dini etiqad azadlığı haqqında" və "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanunlar və digər qanunvericilik aktları rəhbər tutularaq yad dini ideologiyaların yayılmasına, cəmiyyətdə kök atmasına qarşı əsasını dini maarifləndirmə tədbirləri təşkil etməklə bir neçə istiqamətdə mübarizə aparıldığını deyib. Dini radikalizmlə mübarizədə dini qurumların işini diqqətə çatdıran sədr müavini könüllülük əsasında birləşmiş dindar şəxslərin yaratdığı dini icmaların ayrı-ayrı gənclərin radikalizmə və dini ekstremizmə meyillənmələrinin qarşısının alınmasındakı rolunu vurğulayıb.

DQİDK–nın Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətlərinin bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən yüksələn xətlə inkişaf etdiyini, Azərbaycanda olan tolerantlığın bütün dünya üçün nümunəvi olduğunu diqqətə çatdırıb. Dini mühitdə radikal və ekstremist təmayüllərin inkişafına qarşı ən effektiv yollarından birinin dini maarifçilik, təhsil olduğunu bildirən Natiq Əfəndiyev bu istiqamətdə Dövlət Komitəsinin bütün bölgələrdə həyata keçirdiyi maarifləndirici tədbirlərdən bəhs edərək əsasən gənclərin bu layihələrə cəlb olunduğunu qeyd edib.

Mövzu ətrafında çıxış edən Yevlax şəhər Təhsil şöbəsinin əməkdaşı Umudvar Mamedov və Yevlax rayonu üzrə Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Namiq Əliyev keçirilən seminarın əhəmiyyətindən danışaraq, ölkəmizdə dövlət-din münasibətlərinin möhkəm təməllər üzərində qurulduğunu diqqətə çatdırıblar.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# LƏNKƏRANDA "DİNİ MƏZHƏBÇİLİK MEYİLLƏRİNİN MİLLİ BİRLİYƏ VƏ DİNİ TƏHLÜKƏSİZLİYƏ TƏSİRİ" MÖVZUSUNDA SEMİNAR KEÇİRİLİB

Dekabrın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı və Lənkəran Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda seminar keçirilib.




Seminarda DQİDK sədrinin müavini Gündüz İsmayılov, şöbə müdirləri Sadiq Mirzəyev, Oktay Hüseynov, Qağayı Məmmədov, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı Aparatının əməkdaşı Cavad Miriyev, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Lənkəran bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Qəni Axundzadə və gənclər iştirak ediblər.

Seminarı giriş sözü ilə açan Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı Aparatının əməkdaşı Cavad Miriyev çıxış edərək mövzunun əhəmiyyətindən bəhs edib. C.Miriyev rayonda dini durumun sabit olduğunu, yeniyetmə və gənclərin iştirakı ilə maarifləndirmə tədbirlərin keçirildiyini bildirib.

QMİ-nin Lənkəran bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Qəni Axundzadə çıxış edərək Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin, dinlərarası və məzhəblərarası həmrəyliyin mövcud olduğunu qeyd edib. Q.Axundzadə ölkəmizdə olan milli birliyin qorunub saxlanılması, daha da gücləndirilməsinin vacibliyinə diqqət çəkib.

DQİDK sədrinin müavini Gündüz İsmayılov mövzu ilə bağlı təqdimatla çıxış edib. Təqdimatında "dindar kontingent daxilində dünyəviliyin, ənənəvi İslamın zəifləməsi", xarici təsirlərin güclənməsi, qadın hüquqlarının məhdudlaşdırılması cəhdləri kimi məqamlara toxunan G.İsmayılov vurğulayıb ki, vətəndaşların, xüsusilə uşaqların və gənc nəslin mənəvi sağlamlığını, ölkədə tarixən mövcud olan tolerantlıq ənənələrini və dözümlülük prinsiplərini qorumaq, inkişaf etdirmək dövlətin prioritet vəzifələrindən biridir. O qeyd edib ki, ideoloji müstəvidə din sahəsində mövcud olan problemlərdən biri də, dini kimliyimizin milli kimliyimizə qarşı qoyulmasıdır. Bu gün bəzi dini qruplar bunu məqsədli şəkildə edirlər və bununla da, müxtəlif təriqətlər arasında qarşıdurmalar yaratmağa çalışırlar.

Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsirini də izah edən G.İsmayılov vurğulayıb ki, yad dini-ideoloji qüvvələrə qarşı mübarizədə effektiv dini maarifləndirmə tədbirlərinin aparılması vacibdir. Xalqımızın zəngin milli-mənəvi, tolerant və multikultural dəyərlərindən bəhs edən natiq bu dəyərlərin qorunması və geniş təbliğ edilməsinin kənar təsirlərə qarşı mübarizədə əhəmiyyətli olduğunu bildirib. Din pərdəsi altında gizlənmiş məkrli qüvvələrin məqsədi, real təhlükəsi barədə cəmiyyət mütəmadi məlumatlandırılmalı, vətəndaşların din adı altında hüquqlarının məhdudlaşdırılması yolverilməz olmalıdır. Bu gün cəmiyyətimizi dini radikalizmin təsirlərindən qorunmaq üçün hər kəsin, xüsusilə gənclərin ümumi dini biliklərə malik olması ən vacib şərtlərdən biridir. Bunun üçün isə dini maarifləndirmə sahəsində görülən işlərin intensivliyini və keyfiyyətini artırmaq lazımdır.

Sonda mövzu ətrafında iştirakçıların sualları cavablandırılıb.

# TƏRTƏRDƏ "MÜSTƏQİLLİYİMİZ TARIXİ NEMƏTİMİZDİR" FİLMİ NÜMAYİŞ OLUNUB



Azərbaycanda fəaliyyət göstərən 100-dən çox qeyri-hökumət təşkilatının nümayəndələri Tərtər rayonunun işğaldan azad edilmiş Suqovuşan qəsəbəsinə və Talış kəndinə səfər ediblər. Səfər 10 Dekabr – Ümumdünya İnsan Hüquqları Günü ilə əlaqədar Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə baş tutub.

QHT-lərə işğal dövründə ermənilərin törətdikləri vandalizm aktları, hazırda Talış və Suqovuşanda həyata keçirilən bərpa-yenidənqurma layihələri barədə məlumat verilib. Səfər iştirakçıları erməni işğalçıları tərəfindən viran qoyulmuş Talış kəndində yerləşən rus-pravoslav və alban-udi kilsələrini də ziyarət ediblər.

Ziyarətçilər daha sonra ötən il Tərtərdə Ermənistan silahlı qüvvələri tərəfindən atılan "Smerç" raketi ilə dağıdılan evə baxış keçiriblər. Bildirilib ki, dağıdılan evin sahibi yeni evlə təmin olunub. Dağıdılan ev isə açıq havada muzey kimi saxlanılacaq.

Sonra Tərtər şəhərində qeyri-hökumət təşkilatlarının iştirakı ilə konfrans təşkil olunub. Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən hazırlanmış "Müstəqilliyimiz tarixi nemətimizdir" filmi nümayiş olunub.

# DÖVLƏT KOMİTƏSİNİN KOLLEKTİVİ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT EDİB




Dekabrın 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollektivi Fəxri xiyabana gələrək, müstəqilliyimizin memarı, dövlətçiliyimizin xilaskarı Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, abidəsinin önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

# DÖVLƏT KOMİTƏSİNİN NÖVBƏTİ "KÖNÜLLÜ FƏALİYYƏT" LAYİHƏSİ İŞƏ BAŞLAYIB

Dekabrın 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) "Könüllü fəaliyyət" layihəsinin yeni könüllü qrupu ilə görüş keçirilib.

Görüşdə çıxış edən DQİDK-nın Aparat rəhbəri vəzifəsini icra edən Amil Cavadov dövlət tərəfindən həyata keçirilən gənclər siyasəti barədə danışıb. Bildirib ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"nda və dövlət başçısının 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışında dövlət orqanlarına gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq, təcrübi biliklərini artırmaq, yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək vəzifəsi qoyulub.



A.Cavadov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində də "Könüllü fəaliyyət" layihəsinin növbəti mərhələsinə start verildiyini, layihənin əsas məqsədinin gənclərə yeni biliklər və təcrübə əldə etmək imkanı vermək olduğunu diqqətə çatdırıb.

Ardınca DQİDK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini Vüsalə Hüseynova və layihənin koordinatoru, İctimaiyyətlə əlaqələr şöbəsinin böyük məsləhətçisi Nərminə Məmmədova "Könüllü fəaliyyət" proqramı barədə gənclərə ətraflı məlumat veriblər.

Qeyd edək ki, 6 ay müddətində könüllü kimi fəaliyyət göstərib müqavilə öhdəliklərini uğurla başa vuran gənclərin hər birinə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən xüsusi sertifikatlar veriləcək ki, bu da onların əmək fəaliyyətinə uğurlu bir keçid fürsəti olacaq.

# "VƏTƏNPƏRVƏRLİK: MİLLİ-MƏNƏVİ DƏYƏR KİMİ"

Dekabrın 7-də Salyan rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Salyan Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Vətənpərvərlik: milli-mənəvi dəyər kimi" mövzusunda konfrans keçirilib.

Rayon Gənclər və İdman İdarəsinin və Təhsil Şöbəsinin əməkdaşları, ziyalılar, Vətən müharibəsi iştirakçıları, eləcə də şəhid ailələrinin üzvlərinin iştirak etdiyi tədbir Vətənimizin suverenliyi, bütövlüyü və azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Salyan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Aqşin Babayev mövzunun əhəmiyyətindən danışıb.

Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə çıxış edərək bu cür tədbirlərin gənclərimizə Vətənə sevgi hisslərinin aşılanması, onlar arasında milli vətənpərvərlik ruhunun təbliğ olunması baxımından əhəmiyyətli rola malik olduğunu qeyd edib. C.Əlifzadə bildirib ki, Vətən müharibəsində xalqımız güclü birlik və həmrəylik nümayiş etdirərək ölkə Prezidenti cənab İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşdi. Onun sözlərinə görə, milli-mənəvi dəyərlərimizə, Vətəninə, dövlətinə sadiq gənclərimiz torpaqlarımızın işğaldan azad olunması naminə qəhrəmanlıq göstərdilər. DQİDK-nın şöbə müdiri onu da vurğulayıb ki, 30 ildən sonra Azərbaycan bayrağı işğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda dalğalanmaqdadır.



Şəhid ailələrinin üzvləri Əliş Şirinov, Arzu Quliyeva, Vətən müharibəsi iştirakçısı Murad Fevziyev, eləcə də Rayon Ziyalılar Birliyinin sədri Allahverdi Piriyev mövzu ilə bağlı çıxış ediblər. Qeyd edilib ki, ölkə rəhbərliyi tərəfindən şəhid ailələrinə və qazilərə hər zaman xüsusi diqqət göstərilir.




# CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ SEMİNAR-TRENİNQLƏR KEÇİRİLİB

Ədliyyə Nazirliyi Penitensiar Xidməti ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında 2021-ci il üçün təsdiq edilmiş tədbirlər planı çərçivəsində məhkumların asudə vaxtlarının səmərəli keçirilməsi, vicdan və dini etiqad azadlığının təmin olunması istiqamətində tədbirlər davam etdirilir.

Komitə əməkdaşlarının məhkumlarla növbəti görüşü 6 və 15 saylı cəzaçəkmə müəssisələrində keçirilib.

"Dünyəvi dövlətdə dinin yeri və rolu. Multikultural cəmiyyətdə dini radikalizmin təhlükəsi" mövzusunda keçirilmiş seminar-treninqlərdə məhkumlarla geniş diskussiya aparılıb, onları maraqlandıran suallar cavablandırılıb.

# AZƏRBAYCANDAKI DİNİ KONFESSİYALARIN RƏHBƏRLƏRİNDƏN

### *Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə*

**Möhtərəm cənab Prezident,**

Zati-alinizi əlamətdar yubiley - təvəllüdünüzün 60 illiyi münasibətilə təbrik etməkdən şərəf duyur, Azərbaycan xalqı və dövləti naminə misilsiz fəaliyyətinizə, beynəlxalq müstəvidə fövqəladə səylərinizə Uca Yaradandan uğurlar diləyirik.

Cənabınız ömrünün müdriklik məqamına elə bir möhtəşəm Qələbə ilə yetişmişdir ki, bu, dünya miqyasında hər bir dövlət xadiminin arzu etdiyi yüksəklikdir. Siz müdrikliyinizi yaşınızla, təvəllüd tarixinizlə deyil, əməllərinizlə, dövlətçilik təfəkkürünüzlə təsdiq etmiş dövlət xadimisiniz. Sizin Azərbaycan xalqına bəxş etdiyiniz Qarabağ Zəfəri uğurlu dövlət xadiminin, qalib sərkərdənin doğma xalqına əvəzsiz töhfəsi olub, bəşər tarixinə həkk olunacaq hadisə miqyasına malikdir. Vətənimizin, regionumuzun gələcəyi üçün bu Zəfərin dəyəri misilsiz, dünyanın inkişaf istiqamətləri baxımından taleyüklüdür.

Azərbaycan torpaqlarının işğaldan azad edilərək ərazi bütövlüyünün bərpası yönündə Ali Baş Komandan olaraq rəhbərlik etdiyiniz qalibiyyətli Vətən müharibəsi haqqın, ədalətin təntənəsi kimi tarixin salnamələrinə həkk oldu. Uca Yaradanın Lütfü ilə Siz Azərbaycan Ordusunun gücü, xalqın sarsılmaz həmrəylik və iradəsi, dövlət-xalq birliyinə əsaslanan müdrik siyasətinizlə Azərbaycanın haqq işinin qələbəsini təmin etdiniz. Azərbaycan xalqına Vətən müharibəsində böyük Zəfər yaşatmış müzəffər sərkərdə - Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi ömrünüzün əlamətdar mərhələsində bu sevinc və şərəfi ən çox haqq edən məhz Zati-alinizdir.

Biz fəxr edirik ki, dilindən və dinindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşlarına unudulmaz fəxarət anları yaşadan Qarabağ Zəfərinin müəllifi, Azərbaycan xalqının böyük oğlu, müdrik dövlət rəhbərimiz - Zati-alinizin qətiyyəti sayəsində dövlət bayrağımız azad Qarabağda dalğalandı, məscidlərimizin minarələrindən azan səsləri ucaldı, işğal dövründə vandalizmə məruz qalmış dini məbədlərimiz əsarətdən qurtuldu.

Uca Yaradan doğru yolda olanların səy və əməllərinə rəvac verir. Şükürlər olsun ki, Vətənimizə, millətimizə uğurlar yaşadan lider qismət olmuşdur. Böhranları üstələyə biləcək iqtisadiyyatı, örnək siyasi mədəniyyəti, dinimənəvi dəyərləri ilə tanınan Azərbaycan gerçəkliyi dünyanın diqqətindədir. Bütün bunlar, heç şübhəsiz ki, Sizin güclü, ardıcıl siyasi iradənizin sayəsindədir. Bu gün Sizin rəhbərliyinizlə multikultural, bəşəri dəyərlərə sadiq Azərbaycan işğaldan azad olunmuş torpaqlarında erməni vandalizminin acı nəticələrini aradan qaldırır, möhtəşəm infrastruktur layihələri, genişmiqyaslı quruculuq işləri reallaşdırır. Allah evlərinin, məbəd və ibadət məkanlarının yenidən inşa-bərpası ilə bağlı qətiyyətli iradə və fəaliyyətiniz bizi hədsiz sevindirir.

Möhtərəm cənab Prezident, dini konfessiya rəhbərləri olaraq, Sizə ölkə daxilində və beynəlxalq müstəvidə təqdirəlayiq fəaliyyətinizə, Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyəsinin təmini istiqamətində əməli addımlarınıza görə dərin minnətdarlığımızı bildirməkdən şərəf duyuruq. Sizin həyatınızın şərəfli ildönümü bizə xoş fürsət verir ki, cənabınızın Azərbaycan dövləti və cəmiyyəti üçün böyük xidmətlərinə görə bütün Azərbaycan dindarlarının dərin təşəkkürlərini bir daha ifadə edək. Azərbaycandakı müxtəlif dini konfessiyaların nümayəndələri - dindarlar və din xadimləri fəxr edir və inanırlar ki, Azərbaycanı qalib ölkə, xalqını zəfər çalmış xalq yüksəkliyinə qaldırmış Zati-alinizin rəhbərliyi ilə Azərbaycan bundan sonra da yeni zirvələrə yüksələcək, hər zaman uğurlara imza atacaqdır. Azərbaycanın dövlət rəhbəri olaraq təvəllüd gününüzdə dünyanın müxtəlif nöqtələrindən təbriklər qəbul edən qalib xalqın müzəffər sərkərdəsi, Qarabağın fatehi, Ali Baş Komandan olaraq Sizin ən böyük mükafatınız xalqın dəstək və həmrəyliyi, sonsuz məhəbbət, dərin etimad və hədsiz minnətdarlığıdır. Var olun, hər zaman Zirvədə olun, uğur həmişə Sizə yar olsun! Zati-alinizi və Azərbaycanın əmin-amanlığını, tərəqqisini təmin edən siyasi dəst-xəttinizi dəstəkləyən, hər zaman diqqət, qayğı və himayənizi hiss edən biz dindarların duaları hər zaman Sizinlədir.

Möhtərəm cənab Prezident, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların Məşvərət Şurası adından Sizi - Azərbaycan dövlətinin müstəqbəl dövlət başçısını şərəfli ildönümü münasibətilə ürəkdən təbrik edir, ölkə dindarlarının iradəsini ifadə edərək Zati-alinizə və dəyərli ailənizə cansağlığı, xoşbəxtlik, dövlətçiliyimiz naminə fəaliyyətinizdə uğurlar diləyirik. Sizin qlobal müstəvidə dinlər və sivilizasiyalararası dialoq işinə verdiyiniz böyük əməli töhfələri yüksək dəyərləndirən nüfuzlu din xadimlərinin, o cümlədən Şimali Qafqaz müftilərinin şanlı yubileyiniz münasibətilə səmimi təbrik və xoş arzularını Zati-alinizə çatdırmaqdan məmnunluq duyuruq.

O Bir Olan Yaradanımız hər zaman yardımçınız olsun, öz Lütf və Mərhəmətini hər zaman Azərbaycan xalqı, dövləti və onun müdrik dövlət rəhbəri üzərində bərqərar etsin, Azərbaycanı hifz etsin! Amin!

Dərin hörmət və ehtiramla,

**Şeyxülislam Allahşükür Paşazadə**
Qafqaz Müsəlmanları İdarəsinin sədri,

**Milix Yevdayev**
Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri,

**Müfti Salman Musayev**
Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini,

**Arximandrit Aleksiy Nikonorov**
Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi

**Yepiskop Vladimir Fekete**
Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol prefekturasının ordinarisi

**Aleksandr Şarovski**
Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri

**Robert Mobili**
Alban-udi Xristian Dini İcmasının sədri

# 31 DEKABR
## *UĞURA AÇILACAQ GÜN*

Yəhudi diasporu ilə bağlı geniş tədqiqat aparmış və onun güclü olmasının səbəblərini öyrənməyə çalışmış türkiyəli bir professor araşdırmalarının nəticəsində gəldiyi qənaəti belə ifadə edir: dünyanın ən ali kürsülərindən yəhudilərin səsi eşidilir. Bunun əsas səbəbi onların pulunun çox olması və dünyanın hər yerində yaşamaları deyil, həmişə və hər yerdə həmrəy olmalarıdır.

Şübhəsiz, güc birlikdən yaranır, birlik isə milli-dini nəticədir. Yəhudilər özləri də etiraf edirlər ki, onların gücü birliklərindən, birlikləri isə Tövratdan qaynaqlanır. Çünki müqəddəs kitablarına görə, onlar hər zaman və hər yerdə həmrəy olmalı, bir-birilərindən heç vaxt şikayət belə etməməlidirlər.

Xarici ölkələrdə yaşayan yəhudilərin sayı bugünkü İsrail dövlətinin əhalisindən çoxdur. Ancaq bütün yəhudilərin müqəddəs məqsədi tarixi vətənlərinə - İsrailə xidmət etməkdir. Bizim də bütün qitələrdə və dünyanın əksər ölkələrində milyonlarla soydaşımız yaşayır, onların da sayı bugünkü Azərbaycan Respublikasının əhalisindən dəfələrlə çoxdur. Sayları 50 milyonu ötmüş azərbaycanlıların tək ümid yeri və yeganə dövlətləri ümumi Vətənimiz tarixi Azərbaycandır.

Azərbaycanlılar da müxtəlif tarixi dövrlərdə soyqırıma, repressiya və sürgünə məruz qalıblar. Üstəlik, dəfələrlə soyqırımı ilə üzləşmiş, imperiyalar arasında bölünmüşük. Ancaq hələ də onlar kimi güclü diaspora qura bilməmişik. Təbii ki, bunun əsaslı səbəbləri mövcuddur və onlar müxtəlif variantlarda geniş izah oluna bilər. Amma bütün hallarda dəyişməz bir həqiqət var: biz də güclü diaspor formalaşdırmaq imkanına sahibik. Çünki həm müqəddəs kitabımız Qurani-Kərimin birlik və bərabərlik çağırışları, həm milli dəyərlərimiz, həm də xalq kimi ortaq xarakterik keyfiyyətlərimiz həmrəy olmağımız və birliyimizi gücə çevirməyimiz üçün böyük mənəvi bazis ola bilər.

44 günlük Vətən müharibəsi də sübut etdi ki, həmrəylik bizim üçün heç vaxt şüar olmayıb, əksinə, son hədəfə - müqəddəs amala çatmağımız üçün əvəzedilməz, alternativsiz vasitə olub. Bu müharibədə Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşərək "Dəmir yumruğ"a çevrildi, oğullarımız Vətənimizin müdafiəsi, torpaqlarımızın düşmən tapdağından azad olması yolunda canlarını sipər etdilər. Şəhidlik zirvəsinə ucaldılar, Qazi oldular, Qəhrəman oldular.

...Qəribə təsadüfdür, 31 dekabr həm də ilin son günüdür. Deməli, bu tarix hər bir azərbaycanlı üçün təkcə köhnə ilin son günü deyil, həm də işıqlı gələcəyin, böyük uğurun başlanğıcı, ilk günüdür. Axı həmrəyliyimizin - 31 dekabrın səhəri günü TARİX dəyişməlidir...

***"Cəmiyyət və Din"***

# KAZANDA İSLAM ƏLYAZMALARI MƏRKƏZİ YARADILACAQ



Kazanda müxtəlif fondlarda olan İslam əlyazma mənbələrinin mühafizəsi, tədqiqi, populyarlaşdırılması və elmi dövriyyəyə daxil edilməsi üzrə elmi mərkəz yaradılacaq. Bu, İslamın Volqaboyu Bolqarıstan tərəfindən qəbulunun 1100-cü ildönümünün qeyd edilməsinə hazırlıq çərçivəsində həyata keçiriləcək. Bu barədə "RİA Novosti" xəbər verir.

Rusiya Federasiyası Baş nazirinin müavini Marat Xusnullin 2022-ci ildə İslamın Volqaboyu Bolqarıstan tərəfindən qəbulunun 1100 illiyinə hazırlıq və qeyd edilməsi üzrə əsas tədbirlər planını təsdiqləyib. O qeyd edib ki, Tatarıstanda bir sıra elmi, mədəni və maarifləndirici tədbirlər keçiriləcək. Bu tədbirlər Volqaboyu Bolqarıstanın İslamı qəbul etməsinin həm tarixi keçmişdə, həm də bu gün insanları birləşdirmək baxımından əhəmiyyətini göstərməyə, inkişaf yolunun unikallığını vurğulamağa, Rusiyanın İslam dünyasında nüfuzunu və imicini gücləndirməyə imkan verəcəkdir.

# "MULTİKULTURAL CƏMİYYƏTDƏ MƏZHƏBÇİLİK VƏ DİNİ TƏƏSSÜBKEŞLİK MEYİLLƏRİNİN YARATDIĞI PROBLEMLƏR" MÖVZUSUNDA SEMİNARLAR KEÇİRİLİB

**BƏRDƏDƏ**

Dekabrın 2-də Bərdə rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda seminar təşkil olunub.



Tədbiri giriş sözü ilə açan Bərdə Rayon İcra Hakimiyyətinin nümayəndəsi Asif Abbasov bu qəbildən olan tədbirlərin cəmiyyətin, xüsusilə gənclərin dini maarifləndirilməsində əhəmiyyətinə diqqət çəkib.

Seminarda çıxış edən DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova bildirib ki, dünyanın dini və məzhəb zəminində baş verən münaqişələrlə üzləşdiyi bir zamanda ölkəmiz milli, dini həmrəyliyi, birliyi ilə fərqlənir. Multikulturalizm və tolerantlığın cəmiyyətimizin həyat tərzi olması onun yüksək mənəvi inkişafının göstəricisidir. Bəşəri dəyərlərin, birgəyaşayış mədəniyyətinin, qarşılıqlı anlayışın bundan sonra da qorunub saxlanması və inkişafı üçün təbliği və təşviqi çox vacibdir.

Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva təqdimatla çıxış edərək, son zamanlar texnologiya və ünsiyyət vasitələrinin sürətli inkişafı ilə yeni, daha təsirli "sosial media dindarlığı" adlı bir dindarlıq növünün yarandığını bildirib. O qeyd edib ki, sosial şəbəkələr ən geniş yayılmış təbliğat platforması olduğundan dini radikal qruplar bütün vasitələrdən istifadə edərək öz zərərli fikirlərini yaymaq, cəmiyyətdə insanlar arasında din və məzhəb ayrı-seçkiliyi yaratmaq üçün ondan istifadə edirlər. Bütün bu təhdidlərlə mübarizə üsulları barədə danışan Y.Əliyeva məktəblilərin, yeniyetmələrin sosial şəbəkələrdən istifadəsinə ciddi nəzarət edilməsinin, ümumilikdə isə bütün yaş qruplarından olan vətəndaşlar ilə dini maarifləndirmə işinin genişləndirilməsinin labüdlüyünü diqqətə çatdırıb.

**QUBADA**

Bu mövzuda növbəti seminar dekabrın 10-da DQİDK-nın təşkilatçılığı ilə Qubada təşkil olunub.

Seminarı giriş sözü ilə açan Quba RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Anar Məmmədov tədbirin əhəmiyyətinə diqqət çəkib.



Rayonun idarə və müəssisələrində, təhsil, səhiyyə ocaqlarında çalışan qadınların qatıldığı seminarda çıxış edən Komitənin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva, DQİDK-nın əməkdaşı Aysel Abdullayeva mövzuya müxtəlif aspektlərdən yanaşaraq fikir və düşüncələrini tədbir iştirakçıları ilə bölüşüblər. Məruzələr multikultural dəyərlərin düzgün təbliği, ənənəvi dindarlıq anlayışının və Azərbaycanın tolerantlıq modelinin mahiyyəti, müasir dünyada dini dözümlülüyün əhəmiyyəti, habelə yad dini ideologiyaların sosial media vasitəsilə yayılmasının təhlükəsi, maarifləndirmədə qadınları rolu istiqamətlərini əhatə edib.

Bildirilib ki, Azərbaycan xalqının sahib olduğu multikultural dəyərləri və tolerantlıq ənənələrini qorumalı və gələcək nəsillərə ötürmək üçün əlimizdən gələni əsirgəməməliyik. O da vurğulanıb ki, məzhəbçilik və dini təəssübkeşlik meyilləri dini radikalizm və xurafatdan heç də az təhlükə daşımır. Bu kimi mənfi halların baş verməsi həm də dini məlumatların yetərli olmaması ilə əlaqədardır. Sosial şəbəkələrdə məzhəblərarası və konfessiyalararası münasibətlərə zərbə vuracaq təhrikedici materialların sayının gündən-günə artdığını nəzərə alaraq, sözügedən risklərdən qorunmaq üçün məktəblilərin, yeniyetmələrin sosial şəbəkələrdən istifadəsinə ciddi nəzarət edilməlidir.

**CƏLİLABADDA**

Analoji seminar dekabrın 14-də DQİDK-nın təşkilatçılığı ilə Cəlilabadda keçirilib.



Seminarı giriş sözü ilə açan Cəlilabad RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Loğman Hüseynov bildirib ki, dövlətimiz tərəfindən həyata keçirilən ardıcıl və düşünülmüş siyasət nəticəsində bu gün Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan və bir sıra dünya ölkələri tərəfindən ayrı-ayrı millətlərin və müxtəlif dini konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınıb.

Rayonun idarə və müəssisələrində, təhsil, mədəniyyət, səhiyyə ocaqlarında çalışan qadınların, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialının müəllim və tələbə heyətinin qatıldığı seminarda çıxış edən Komitənin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva maarifləndirmə tədbirinin əhəmiyyətinə diqqət çəkərək ölkəmizdə müxtəlif dinlərin, məzhəblərin və xalqların nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində yaşadıqlarını qeyd edib, multikulturalizmin xalqımızın həyat tərzini təşkil etdiyini vurğulayıblar. Həmçinin məruzələrdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin multikultural cəmiyyət üçün yad olduğu bildirilib.

Məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlərə toxunulan çıxışlarda vurğulanıb ki, bu kimi mənfi tendensiyaların qarşısının alınmasında ən önəmli vasitə dini bilgilərin artırılması, xüsusilə, yeniyetmə və azyaşlıların məzhəblərarası münasibətlərə təhdid yaradacaq informasiya mühitinin təsirindən qorunmasıdır.

**GƏNCƏDƏ**

Bu mövzuda daha bir seminar dekabrın 17-də DQİDK-nın təşkilatçılığı ilə Gəncə şəhərində baş tutub.



Qadınların iştirakı ilə keçirilən tədbirdə açılış nitqi ilə çıxış edən Dövlət Komitəsinin Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Həsən Məmmədov dini təəssübkeşlik, məzhəbçilik, dini fanatizm və bu kimi digər bölücü tendensiyaların cəmiyyətin balansını pozduğunu, insanlar arasında uçurum yaratdığını bildirib.

DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova dini təəssübkeşlik, ekstremizm və radikalizmlə mübarizənin zəruriliyini qeyd edərək bu işdə cəmiyyətin bütün təbəqələrinin, xüsusən də qadınların roluna diqqət çəkib. Bu istiqamətdə qadınların üzərinə düşən öhdəliklərdən danışan şöbə müdiri hər bir qadının təhsilli olmasının, düzgün dini bilgilərə malik olmasının, milli-mənəvi, tolerant dəyərlərimizə bağlılığının cəmiyyətin sağlam gələcəyinin təminatı olduğunu qeyd edib.

Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva təqdimatla çıxış edərək bildirib ki, cəmiyyətimizə yad olan dini ideologiyaların yayılmasında bu gün sosial şəbəkələr mühüm rola sahibdir. Son illər gənclər arasında sosial şəbəkələrin populyarlaşmasının onların aktivliyini artırmaqla yanaşı, mənfi meyillərə də yol açdığını bildirən şöbə müdiri məktəblilərin, yeniyetmələrin sosial şəbəkələrdən istifadəsinə ciddi nəzarət edilməsinin, ümumilikdə isə bütün yaş qruplarından olan vətəndaşlar ilə dini maarifləndirmə işinin genişləndirilməsinin labüdlüyünü diqqətə çatdırıb. Dini təəssübkeşlik, məzhəbçilik İslam dininin təbliğ etdiyi dəyərlərlə tamamilə ziddiyyət təşkil edir. Bütün bunlara qarşı mübarizədə xalqımıza məxsus milli-mənəvi dəyərlərin, o cümlədən tolerant və multikultural ənənələrin təbliği mühümdür.



DQİDK-nın əməkdaşı Aysel Abdullayeva isə "Xurafatla mübarizədə qadınların rolu" mövzusundakı təqdimatında xurafatı yaradan amillər, onun növləri, xurafatın yol aça biləcəyi zərərli əməllərdən danışıb, xurafatla mübarizədə ziyalı insanların, xüsusilə qadınların üzərinə çox böyük məsuliyyət düşdüyünü diqqətə çatdırıb.

Qeyd edək ki, seminarlarda DQİDK-nın sifarişi ilə çəkilən və müzakirə edilən mövzuları əks etdirən "Dövlət və din", "Könüllülər hərəkatı və dini icmalar", "Din və sosial media" adlı videoçarxlar da nümayiş olunub.

# "ZƏFƏRƏ APARAN YOL: MİLLİ VƏ DİNİ HƏMRƏYLİK"

Dekabrın 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şamaxı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda seminar keçirilib.

Seminarda DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə, Dövlət Komitəsinin Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Elnur Mehdiyev, Şamaxı RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Rəşad Əliyev, Qafqaz Müsəlmanları İdarəsinin Şamaxı bölgəsi üzrə qazısı Mərəhmət Mustafayev, idarə və təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri, din xadimləri, müəllim və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Şamaxı RİH-in nümayəndəsi Rəşad Əliyev mövzunun əhəmiyyətindən danışıb. Natiq Azərbaycanda fərqli dinlərərə etiqad edənlərin və azsaylı xalqların nümayəndələrinin yaşadığını, müxtəlif



dini konfessiyaların uzun əsrlərdən bəri sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiyini bildirib. Qeyd edib ki, ölkəmizdə hər zaman başqa xalqların dilinə, dininə, mədəniyyətinə hörmətlə yanaşılıb.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə çıxışında müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışının sürətləndiyini bldirib. C.Əlifzadə vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərlik etdiyi ölkəmizdə dinlərarası münasibətlər ən yüksək səviyyədədir və hər kəsin etiqad azadlığı təmin olunur. Şöbə müdiri Azərbaycanın müxtəlif millətlərin dostluq, qardaşlıq şəraitində yaşadığı respublika kimi bütün dünyaya nümunə olduğunu qeyd edib.

QMİ-nin Şamaxı bölgəsi üzrə qazısı Mərəhmət Mustafayev çıxışında dövlətin dinə və dindarlara qayğısından bəhs edib. M.Mustayev bildirib ki, Azərbaycanın bütün bölgələrində, o cümlədən tarixi Zəfər qazandığımız 44 günlük Vətən müharibəsinin nəticəsində işğaldan azad edilmiş bölgələrdə yeni məscidlər inşa edilir və ya əsaslı təmir olunur.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# MİLAD BAYRAMI İLƏ BAĞLI MARAQLI FAKTLAR

Roma yepiskopu Papa I Yuli 320-ci ildə dekabr ayının 25-ci rəsmi olaraq Həzrət İsanın (ə) doğum günü elan etdi. Ancaq bu bayram, demək olar ki, uzun müddət heç kim tərəfindən qeyd olunmadı. Başlanğıcda Şimali Amerika kolonistləri Miladı qəbul etmək istəmirdilər. Bostonda Milad bayramını keçirmək istəyənləri cərimə gözləyirdi. Yalnız 1870-ci ildə - ABŞ Prezidenti Uliss Qrantın dövründə bayram geniş miqyasda qeyd olunmağa başlandı.

***

Milad bayramı üçün şam ağacının bəzədilməsi ənənəsinin kökləri 1700-ci ilə gedib çıxır. İlk süni şam ağaclarını almanlar tərəfindən qaz lələklərindən hazırlanmışdır.

***

1843-cü ildə Londonda Ser Henri Koul tərəfindən ilk təbrik açıqcaları hazırlandı. Hazırda Amerikada hər il bayram münasibətilə 3 milyondan artıq açıqca göndərilir.

***

Miladın məşhur personajı – Şimal maralını 1939-cu ildə hipermarketlərdən biri müştərilərin diqqətini çəkmək üçün fikirləşmişdir. Digər tanınmış personaj – Qar adamı isə ilk dəfə 1890-cı ildə spirtli içki reklamında peyda olmuşdur.

***

Santa Klaus obrazı özündə holland, amerikan və ingilis elementlərini birləşdirir. İlk dəfə 1810-cu ildə ABŞ-da yaranmasına baxmayaraq, Santa Klausun prototipi IV əsrdə yaşamış Müqəddəs Nikolaydır. Bibliyada adı keçməyən ən məşhur müqəddəs olan Nikolay hazırkı Türkiyə ərazisindəki Patarada anadan olub. Yazıçı İrvinq Vaşinqtonun 1819-cu ildə yazdığı hekayədə Santa Klaus öz xizəyində göydə uçan şəkildə təsvir olunmuşdu. 1965-ci ildə amerikalı astronovtların uçan maral sürüsü gördüyü xəbərini Yerə göndərməsi nəticəsində Santanın məşhurluğu daha da artdı.

***

ABŞ-da bayram ağaclarının satışına 1850-ci ildən başlanılıb. Satışa yalnız 15 il yaşı olan ağaclar çıxarılır.

***

Milad bayramında süfrənin müxtəlif məzələrlə bəzədilməsi ənənəsi mövcuddur. Hər xalq süfrəsini özünəməxsus təamlarla doldurur. Danimarkada bayramın əsas yeməyi almalarla birlikdə qızardılmış qaz və üzümlü düyü sıyığıdır. Milad gecəsində sıyıq qazanının qapağı açıq qoyulurdu ki, cırtdanlar onu yesinlər və ev sahiblərinə ziyan vurmasınlar.

Böyük Britaniyada içinə üzük, xırda pul və balaca nal yerləşdirilmiş bayram piroqu bişirilir. Xırda pul – zənginliyin, üzük – toyun, nal – uğurun simvoludur. Kimin bəxtinə hansı düşsə, onun arzusu yerinə yetir.

Litvada Milad öncəsi tərkibinə ət daxil olmayan pəhriz yeməkləri yeyilir. Qızardılmış qazı yalnız Milad günü kostyolu (polyak katolik kilsəsi) ziyarət etdikdən sonra yemək olar.

Almaniya və İngiltərədə qaz və ya hinduşkadan hazırlanmış yemək bayram süfrəsinin ayrılmaz hissəsidir. İngiltərədə süfrəyə mütləq bayram pudinqi təqdim olunur. Həm süfrə, həm də pudinq şam ağacının budaqları ilə bəzədilir.

**"Cəmiyyət və Din"**

# YENİ İLDƏ ŞAM AĞACI BƏZƏMƏ ADƏTİ



Bayram günlərində evin bir guşəsində kiçik şam ağacı yerləşdirib bəzəmək adətinin almanlara məxsusluğu fikri irəli sürülür. Onlar küknarı Cənnət ağacı adlandırmış və Adəm ilə Həvvanın sirli hekayəsinə əsaslanaraq üzərini almalarla bəzəmişlər. XV əsrdən sonra bu ağaclara yalnız meyvə deyil, çörək, biskvit kimi yeməklər də asılmağa başlanmış, protestantlığın yayılması ilə isə bura yanan şamlar da əlavə olunmuşdur. Həmin adət Avropada geniş vüsət almaqla yanaşı, miqrantlar tərəfindən Amerikaya da yayılmışdır. Ağacların dini mərasimlərin mühüm simvoluna çevrilməsi Xristianlıqdan əvvələ, hətta Misir və Çində bütlərə və təbiətə sitayiş olunan dövrlərə qədər gedib çıxır. Həmçinin, Şimali Avropada da bu ağaclar qədim zamanlardan müqəddəs sayılırdı. O dövrlərdə təbiətin yaşıllığı və ağaclar əbədiliyin simvolu hesab olunurdu.

Şimali Avropada qış aylarında yalnız bir neçə saat davam edən gündüzlər 21 dekabrdan etibarən uzanmağa başlayır. Buna görə də uzun qaranlıq günlərin bitdiyinin, getdikcə daha işıqlı günlərin gələcəyinin müjdəsi olan dekabr ayı mərasimlərlə qarşılanardı. Bu adət Avropadan Cənuba keçdikcə fərqli şəkildə yayıldı. Romalılar zamanında təqvimin başlanğıcının dünyanın yaradıldığı ay olduğuna inanılan və təbiətin canlanmasının xəbərçisi olan martdan yanvara keçməsilə hər kəs çaş-baş qaldı. Zaman keçdikcə Şimali Avropa ölkələrində qaranlığın sona yetməsi münasibətilə keçirilən ayin və mərasimlər xristian dünyasında Həzrət İsanın (ə) doğum günü hesab edilərək Milad bayramı ilə əvəz olundu. Bununla da ağaclar, xüsusilə də şam ağacları bu bayramın simvolu kimi qəbul edildi. Bu gün isə dünyada Yeni il ərəfəsində şam ağaclarının bəzədilməsi adəti heç bir dini mahiyyət daşımır. Sivilizasiya və texnologiyanın inkişafı sayəsində şam ağacı üzərindəki şamların yerini yanıb-sönən kiçik rəngli lampalar, alma, çörək və biskvitin yerini isə rəngarəng, bəzəkli oyuncaqlar əvəz etdi. Bu gün insanlar şam ağacına pərəstiş etməsələr də, dəyərini yaxşı bilirlər - bir neçə günlük əyləncə üçün ağacları kəsmir, əvəzinə süni şamlardan istifadə edirlər.

**"Cəmiyyət və Din"**

# ƏRƏB XƏTTATLIĞI UNESCO-NUN SİYAHISINA DAXİL EDİLİB

UNESCO ərəb xəttatlığını özünün Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edib.

Bu barədə məlumat təşkilatın rəsmi səhifəsində yerləşdirilib.

Məlumatda UNESCO ərəb xəttatlığını "axıcı yazı sənəti, harmoniya və gözəlliyin ifadəsi" kimi təsvir edib.

Səudiyyə Ərəbistanı İrsini Mühafizə Cəmiyyətinin icraçı direktoru Əbdül Məcid Məhbub bildirib ki, ərəb xəttatlığı ərəb-müsəlman dünyasının simvoludur, lakin müasir dünyada öz aktuallığını itirir və bu sahədə mütəxəssislərin sayı sürətlə azalır.

O, həmçinin qeyd edib ki, xəttatlığın mədəni irs siyahısına salınması bu sənət növünün qorunub saxlanmasına müsbət təsir göstərəcək. Bildirib ki, xəttatlıq Səudiyyə Ərəbistanı və Ərəb Dövlətləri Liqasının rəhbərliyi altında 16 müsəlman ölkəsinin əməkdaşlığı nəticəsində siyahıya daxil edilib.

Qeyd edək ki, Səudiyyə Ərəbistanının Mədəniyyət Nazirliyi 2020 və 2021-ci illəri Ərəb Xəttatlığı İlləri elan edib. Bununla bağlı hətta Ər-Riyadın Milli Muzeyində ərəb yazısının yaranması və xəttatlığın inkişaf tarixinə, onun müasir incəsənətlə əlaqəsinə həsr olunmuş sərgi keçirilib.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İllərin keşməkeşli sınaqlarından üzüağ çıxmış, bir əsrdə iki dəfə müstəqilliyini elan etməklə heç bir buxovu qəbul etmədiyini göstərmiş Azərbaycan xalqı bu müharibədə də mərdliyi və qəhrəmanlığı ilə bütün dünyanın diqqətini bir daha öz üzərinə çəkdi. Əminliklə demək olar ki, bu məğrurluğun əsasında xalqımızın ədalətsizliklə qətiyyən razılaşmaması, özünün bütün sülhpərvər yönləri ilə yanaşı, hərbi qüdrətini məhz məqamında dəmir yumruğa çevrilməklə göstərməsi, dolayısı ilə "mövzu Vətəndirsə, qalan hər şey təfərrüatdır" deyə bilməsi durur.*

*İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər - şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Abbaslı Elnur Yaşar oğlu



Xalqımızın şanlı tarixi qəhrəmanlıq səhifələri ilə zəngindir. Şərait qəhrəmanlar, qəhrəmanlar isə tarix yaradır. Tarixə çevrilmiş qəhrəmanlarımızdan biri də 1992-ci il iyulun 17-də Tərtər rayonunun Köçərli kəndində anadan olan şəhid Abbaslı Elnur Yaşar oğludur.

O, 1998-2009-cu illərdə Köçərli kənd tam orta məktəbində təhsil alıb. 2010-cu ilin iyulunda Tərtər rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan qəhrəmanımız Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmət edib. Döyüş və fiziki hazırlığı ilə seçilərək keçirilən təlimlərdə adını ilk sıralara yazdırmağı bacaran Elnur 2012-ci ilin yanvarında hərbi qulluğunu uğurla başa vurub.

Vətən qarşısında müqəddəs borcunu şərəflə yerinə yetirən hər bir qeyrətli Azərbaycan vətəndaşı kimi, Elnurun da ən böyük arzusu işğal altındakı torpaqlarımızın azadlığı və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması idi. Elə buna görə də, o, 2019-cu ildə sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayıb.

Sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini pozması ilə başlayan Vətən müharibəsini hamı kimi Elnur da sevinclə qarşılayıb. O, təmsil olunduğu bölmə ilə birlikdə erməni tərəfinin illərdir qurduğu istehkamları yararaq sürətlə irəliləyib və düşmən tapdağında olan ərazilərimizin işğaldan azad olunmasında xüsusi fədakarlığı ilə seçilib.

Elnur döyüşlərin altıncı günündə – oktyabrın 3-də ailəsinə Suqovuşanı azad etdikləri müjdəsini verib. Elə həmin gün axşam saatlarında yaxınlığına düşən artilleriya mərmisindən qəlpə yarası alaraq şəhid olub. O, oktyabrın 8-də doğulub boya-başa çatdığı Köçərli kəndində, uğrunda canını fəda etdiyi müqəddəs Vətən torpağına tapşırılıb.

Elnur ailəli idi, onun bir oğul, bir qız övladı Vətənə yadigar qalıb.

İgidliyi ilə adını tariximizin şanlı səhifəsinə yazan kiçik çavuş Abbaslı Elnur Yaşar oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasna görə" medalları ilə təltif edilib.

## Abbasov İlham Əli oğlu



Əslən Füzuli rayonunun Yuxarı Dilağarda kəndindən olan şəhid Abbasov İlham Əli oğlu 2000-ci il martın 13-də Biləsuvar rayonunda dünyaya göz açıb. İlham 2003-cü ildən ailəsi ilə birlikdə öz doğma rayonlarında salınan "Qayıdış" qəsəbəsində məskunlaşır. O, hələ uşaq yaşlarında atasını itirir. 2006-cı ildə Füzuli rayon Qayıdış qəsəbə 3 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olur və 2017-ci ildə həmin məktəbin 11-ci sinfini bitirir. 2018-cı ilin aprelində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Füzuli rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılan İlham Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmət keçib. Xidmət göstərdiyi müddət ərzində öz vəzifəsinin öhdəsindən layiqincə gələrək ona həvalə edilən silah və hərbi texnikaların taktiki-texniki göstəricilərini dərindən öyrənib. Nümunəvi əsgər olan qəhrəmanımız yuxarı komandanlığın daim diqqət mərkəzində olub və müxtəlif həvəsləndirici təltiflərə layiq görülüb. 2020-ci ildə hərbi xidmətini uğurla başa vuran İlham sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə Piyadanın Döyüş Maşınında "PDM-3" tuşlayıcı-operator vəzifəsində xidmətə başlayıb. Qısa müddət ərzində böyük təcrübə qazanan İlham tuşlayıcı-operator kimi hərbi təlimlərdə, eləcə də "Ən yaxşı tank və zirehli döyüş maşını heyəti" adı uğrunda yarışda yüksək nəticələr göstərib.

Sentyabrın 27-də müharibə başlayan zaman İlhamın bölüyü Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi istiqamətindən döyüşlərə qatılıb. O, tuşlayıcı-operatoru olduğu "PDM-3" ilə düşmənin bir neçə texnikasını, postlarını və canlı qüvvəsini məhv edib. Təlimlərdə olduğu kimi, döyüş zamanı da sərrast atıcılığı ilə fərqlənib.

O, Füzuli rayonunun Qaraxanbəyli və Aşağı Veysəlli kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb. Düşmənin mövqelərinin dərinliklərinə qədər irəliləyən İlham mühasirəyə düşərək şəhid olub.

Mənfur düşmən İlham və bir neçə başqa şəhidimizin nəşini Şuşaya apararaq orada saxlayıb. Yalnız ordumuzun qələbəsindən sonra İlhamın nəşi ailəsinə təhvil verilib. O, noyabr ayının 17-də - şəhadətinin 51-ci günündə Araz Dilağarda kəndində dəfn edilib.

İlham subay idi.

Qorxmazlığı və şücaəti ilə adını Vətən tariximizin şanlı səhifəsinə əbədi yazan əsgər Abbasov İlham Əli oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Abbasov Vahid Sahib oğlu



44 günlük zəfər savaşında Vətən müharibəsinin iştirakçıları ön cəbhədə vuruşaraq adlarını qürur tariximizə yazdılar. Belə qəhrəmanlarımızdan biri də şəhid Abbasov Vahid Sahib oğludur. O, 1994-cü il noyabrın 10-da Şəki şəhərində dünyaya gəlib. Bakı şəhəri Binəqədi rayonunda yaşayan Vahid 2000-ci ildə bu gün artıq Vətən müharibəsi qəhrəmanı Zaur Nudirəliyevin adını daşıyan 47 nömrəli tam orta məktəbin 1-ci sinfinə gedib və 2011-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. 2015-ci ilin oktyabr ayında SHXÇDX-nin Binəqədi rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Silahlı Qüvvələrin Göygöl rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayıb. O, Murovdağda xidmətdə olan zaman 2 erməni kəşfiyyatçısını ələ keçirərək hərbi hissənin rəhbərliyinə təhvil verib və bu şücaəti rəhbərlik tərəfindən xüsusi "Təşəkkürnamə" ilə qiymətləndirilib. Qəhrəmanımız 2016-cı ildə baş verən Aprel döyüşlərinin də iştirakçısı olub. 2020-ci ilin 12 iyulunda düşmənin təxribatı nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində gedən şiddətli döyüşlər bir çoxu kimi Vahidin də həyatının dönüş nöqtəsi olub. Milli Qəhrəman general-mayor Polad Həşimovun şəhadətindən sonra o, SHXÇDX-a müraciət edib və müvafiq formada qeydiyyata alınıb.

2020-ci ilin oktyabrın 8-də SHXÇDX-nin Binəqədi rayon şöbəsi tərəfindən Vahid də təlimlərə çağırılıb. O, Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəyə aparılıb və oradan da Füzuliyə "N" saylı motoatıcı hərbi hissəyə göndərilib. Füzuli və Xocavənd istiqamətindən döyüşlərə qoşulan qəhrəmanımız xüsusi bacarıq göstərərək bir çox erməni canlı qüvvəsini və texnikasını məhv edib. Döyüş yoldaşlarının sözlərinə görə, o, döyüşlərdə aktiv iştirak etməklə yanaşı, yaralılarımızı da çiynində daşıyaraq döyüş meydanından çıxarır və ilkin tibbi yardım göstərirdi.

Vahid oktyabrın 22-də Füzuli uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. O, oktyabrın 23-də doğulduğu Binəqədi rayonunda, uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Ailəsinin sonbeşiyi, son ümid yeri olan şəhidimiz subay idi, onun iki bacısı var.

Döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərərək adını tariximizə əbədi yazan əsgər Abbasov Vahid Sahib oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Hazırladı: **Ramil Hikmət**

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2019

## BƏNDƏR-SERİ-BEQAVAN

Bruney Sultanlığı Cənub-Şərqi Asiyada Borneo adasının şimal sahilində yerləşir. Ölkənin rəsmi adı Bruney-Darüssəlamdır. Cənubi Çin dənizi və Malayziyanın Saravak əyaləti ilə əhatə olunan Bruney Borneo adasında yeganə suveren dövlətdir. Onun ərzisi 5,765 km², əhalisi isə 460 min nəfərdən çoxdur. Bu göstəriciylə dünya ölkələri arasında 175-ci yerdə qərarlaşır. Bruney əhalisinin 75%-i şəhərlərdə yaşayır, urbanizasiya nisbəti ildə 2%-dən çoxdur. Əhalinin təxminən 65,7%-ni malay, 10,3%-ni çinli, qalan hissəsini isə digər etnik qruplar təşkil edir. Bruneyin rəsmi dili malay dilidir. Bundan başqa, ölkə ərazisində ingilis və Çin dillərindən də geniş istifadə olunur. Ölkə 1941-ci ildən latın qrafikalı əlifbaya keçib.



Bruneyin rəsmi dini İslamdır. Əhalinin təxminən 80%-i müsəlman, qalan hissəsi isə buddist, xristian və digər dinlərə mənsubdur.

Bir çox tarixçinin fikrincə, Bruney dövlətinin ərazisi erkən orta əsrlərdə ticarət mərkəzi olmuşdur. Bəzi qaynaqlarda bu dövrdə Bruney çayının sahilində eyni adlı dövlətin mövcud olduğu qeyd edilir. XV əsrdə burada Malakka Sultanlığının vassalı olan Bruney sultanları sülaləsi möhkəmlənmişdir. XVI əsrin ilk 30 illiyində Bruney sultanları öz hakimiyyətlərini Filippin arxipelaqının cənub hissəsinə qədər genişləndirmişdilər. Bruney dövlətinin qızıl dövrü XV əsrdən XVII əsrə qədər davam etmişdir. Avropalıların Cənub-Şərqi Asiyaya genişlənən ekspansiyası Bruneyin əsas gəlir mənbəyi olan ticarəti zəiflətmiş və dövlət tənəzzül etmişdir. 1888-ci ildə Bruney daxili müstəqilliyini qorumaqla Britaniya hökumətinin protektoratına çevrilmişdir. 1959-cu ildə özünün idarəetmə formasını təyin edən yeni konstitusiya qəbul etməsinə baxmayaraq, xarici əlaqələrdə, təhlükəsizlik və müdafiə məsələlərində yenə də Böyük Britaniyadan asılı olmuşdur. 1984-cü ilin yanvarın 1-də isə dövlət öz müstəqilliyini elan etmişdir. Hazırda onun idarəetmə forması mütləq monarxiyadır. Konstitusiyaya görə, sultan ölkədə şəriksiz hakimiyyətə malikdir, həm dövlətin, həm də hökumətin başçısıdır. Bruneydə 36 təyin edilmiş üzvdən ibarət qanunvericilik şurası var ki, yalnız məşvərət funksiyasını yerinə yetirir. Ölkədə hüquq sistemi Britaniya imperiyasının qanunları və İslam qaydaları üzərində qurulub.

Bruney Sinqapurdan sonra Cənub-Şərqi Asiya ölkələri arasında ikinci ən yüksək İnsan İnkişafı İndeksinə malikdir və inkişaf etmiş ölkə kimi qəbul olunur. Xam neft və təbii qaz hasilatı ölkədə ÜDM-nin təxminən 90%-ni təşkil edir. Bruney əsasən kənd təsərrüfatı malları, nəqliyyat vasitələri və elektrik məhsulları idxal edir. O, ehtiyacı olan ərzaq məhsullarının 60%-ni idxal edir ki, bunun da təxminən 75%-i digər Asiya ölkələrindən gətirilir. Bruneyin rəsmi valyutası Bruney dollarıdır.

Ölkənin ən böyük şəhəri paytaxt Bəndər-Seri-Beqavandır. Bruney çayının şimal sahilində salınan şəhər yerli dildə "Rəbbinin şəhəri" kimi tərcümə olunur. Paytaxtda turistləri cəlb edəcək bir çox memarlıq nümunəsinə, xüsusilə məscidlərə, muzeylərə və parklara rast gəlmək olar.

Şəhərdə insanları ən çox maraqlandıran memarlıq nümunələri arasında dövlət başçısının rəsmi iqamətgahı olan Sultan sarayı xüsusi yerə malikdir. "Nurul-İman" adlanan saray Bəndər-Seri-Beqavandan bir neçə kilometr cənub-qərbdə, Bruney çayının sahilində, təpələrin üzərində yerləşir. Sarayda 1788 otaq, 257 vanna otağı, 1500 nəfərlik məscid, 18 lift və 5 hovuz mövcuddur. Tikilinin dəyəri təxminən 1.4 milyard dollar civarındadır. Saray 200 min kvadratmetrlik ərazini əhatə edir və 5 min avtomobil tutumlu parkinqi var.

Şəhəri bəzəyən daha bir ecazkar tikili Həssənal Bolkiah Camesidir. Məscid Bruney-Darüssalamın 29-cu və indiki sultanı Hassanal Bolkiahın hakimiyyətinin 25 illiyi münasibətilə tikilmişdir. Məscidin inşasına 1988-ci ildə başlanmış, 1994-cü il iyulun 14-də - sultanın 48 yaşı tamam olan gün açılışı olmuşdur. Sultan 29-cu hökmdar olduğundan, kompleks 29 qızıl günbəzlə bəzədilmişdir. Bundan əlavə, məscidin hündürlüyü 58 metr olan dörd minarəsi var. Məscid süpürgə pilləkənləri, böyük ölçülü çilçıraqları, incə vitrajları və İslam motivləri ilə göz oxşayır. Onun girişində sultanın şəxsi eskalatorunu görmək olar. Məsciddə eyni anda 5000 nəfər ibadət edə bilər. Came kitabxana, konfrans zalı kimi bir neçə obyektlə təchiz edilmişdir.

Bəndər-Seri-Beqavanın digər böyük məscidi Ömər Əli Seyfuddin məscididir. O, Bruneyin 28-ci sultanı və hazırkı monarx Sultan Hassanal Bolkiahın atası III Ömər Əli Seyfuddinin adını daşıyır. Tikintisinə 1954-cü ildə başlanılan məscidin açılışı 26 sentyabr 1958-ci ildə - Sultan III Ömər Əli Seyfuddinin 42 yaşı tamam olan gün olmuşdur. Layihənin əsas memarı italyan Kavalyeri Rudolfo Nolli olmuşdur. Məscidin inşaatına təxminən 1 milyon funt-sterlinqdən çox pul xərclənmişdir. Tikintidə 1500 ton beton və 700 ton polad istifadə olunmuşdur. Məscid Moğol memarlığı üslubunda inşa edilmişdir, ölçüsü təqribən 69x26 m təşkil edir. Eyni vaxtda 3000 nəfərin ibadət edə biləcəyi məscidin minarəsinin hündürlüyü 52 metrdir. Məbədin əsas qübbəsi real qızıl ilə örtülmüş və 3,5 milyon şüşə parçadan ibarət olan parlaq mozaika ilə bəzədilmişdir. Döşəmə və sütunlar italyan mərmərdən hazırlanmışdır. Döşəmələr Belçika və Səudiyyə Ərəbistanından əl işi olan Axminster xalçaları ilə örtülmüşdür.

Bruneydəki məscidlər arasında unikallığı ilə seçilənlərdən biri də Əş-Şalihin məscididir. Məscid Mərakeş memarlığı üslubunda tikilmişdir. Bina görkəmli Misir memarı Əbdülvahid əl-Vəkilin layihəsi əsasında inşa edilmişdir. Məscid müasir infrastruktura malikdir, məsələn, motorla örtülən dam örtüyü pis hava şəraitində rahat ibadət etməyə imkan yaradır. Daxili dekorasiyanın bütün elementləri Mərakeş və İtaliyadan gətirilmişdir. Məsciddə sultana məxsus əşyaların sərgisi də vardır.

Şəhərin mərkəzindən 24 km məsafədə yerləşən əl-Əmirə əl-Həccə Məryəm məscidi də göz oxşayan tikililərdən biridir. Minarəsi və günbəzi qızılla bəzədilmiş bu memarlıq əsəri 1999-cu ildə ibadətə açılmışdır. Məscid eyni vaxtda 2000-ə yaxın ziyarətçini qəbul edə bilir.

Bundan başqa, Bəndər-Seri-Beqavanda Məhəmməd Bolkiah, Perpindahan Lambak Kanan, Sultan Şərif Əli, əl-Muhtadə Billah, Setia Əli, Kamponq Belimbinq, Kamponq Lambak və digər məscidlər də mövcuddur.

Bəndər-Seri-Beqavan 2019-cu ildə İslam mədəniyyətinin paytaxtı seçilmişdir.

Hazırladı: **Tural VƏLİZADƏ**

## MACARISTANIN BAŞ NAZİRİ: AVROPA XRİSTİANLARLA MÜSƏLMANLARI QARIŞDIRMAQ TƏCRÜBƏSİ APARIR

Macarıstanın Baş naziri Viktor Orban Qərbi Avropa ölkələrinin hökumətlərini "insanlar üzərində möhtəşəm eksperimentlərə" başlamaqda ittiham edib. "Onlar bundan yaxşı bir şey çıxacağı ümidi ilə böyük müsəlman kütlələrini xristianlarla qarışdırırlar". "Breitbart" nəşri bu barədə yazıb.

Macarıstanının "Kossuth" radiosuna müsahibə verən Baş nazir Orbana Avropa Birliyinin immiqrasiya qaydalarının Macarıstan qanunlarından üstün olub-olmaması ilə bağlı Konstitusiya Məhkəməsinin qarşıdan gələn qərarı barəsində sual verilib.

Dövlət rəsmisi cavab verib ki, bütün Avropa məkanında Macarıstan xüsusi ölkədir. Çünki biz yeganə dövlətik ki, burada xalq nə edəcəyinə özü qərar verdi. Biz immiqrasiya ilə bağlı referendum keçirdik.



Onun sözlərinə görə, Macarıstandakı vəziyyət Qərbi Avropadakı vəziyyətdən əsaslı şəkildə fərqlənir. "Orada hökumətlər, elitalar immiqrasiyanın yaxşı bir şey olduğunu düşünürlər və buna görə də çoxlu sayda immiqrantı içəri buraxırlar".

"Elmi, daha doğrusu, empirik olaraq bunun yaxşı olub-olmadığını əvvəlcədən sübut edə bilməyəcəyiniz üçün, məncə, bu təcrübədir. Qərbi avropalılar böyük müsəlman kütlələrini yerli xristianlarla qarışdırmaqdan yaxşı bir şey olub-olmayacağını görmək üçün böyük təcrübəyə başlayıblar. Mən bu təcrübəyə heç vaxt inanmamışam. İnsanlar üzərində təcrübə aparmağı sevmirəm. İnsanlar üzərində aparılan təcrübələr təhlükəlidir", - deyə Macarıstanın Baş naziri vurğulayıb.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini dekabr ayı ərzində də davam etdirmişdir. Maarifləndirmə tədbirləri pandemiya ilə əlaqədar Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən əsasən videokonfrans formatında, bəzi bölgələrdə isə zəruri qaydalara əməl olunmaqla ənənəvi qaydada təşkil olunmuşdur.*

**Cari ay ərzində bu qəbildən olan tədbirlər:**

**1 dekabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala Rayon İcra Hakimiyyəti (RİH), rayon Təhsil Şöbəsi (TŞ) və rayon Gənclər və İdman İdarəsinin (GİI) birgə təşkilatçılığı ilə "Uşaqların mənəvi inkişafı: nəyi necə etməli" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH, rayon Uşaq və Ailələrə Dəstək Mərkəzi (UADM) və rayon GİI-nin birgə təşkilatçılığı ilə "Gender bərabərliyi-insan hüquqları" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Ucar Rayon Polis Şöbəsinin (RPŞ) birgə təşkilatçılığı ilə "Zərərli vərdişlərə hamılıqla yox deyək!" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və rayon GİI-nin birgə təşkilatçılığı ilə "QİÇS xəstəliyi, onun zərərləri və ondan qorunma yolları" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in birgə təşkilatçılığı ilə "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda;



**2 dekabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayonu Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) birgə təşkilatçılığı ilə "Məişət zorakılığı, erkən nikah və bu kimi problemlərlə mübarizə" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Qobustan RİH və Qobustan Rayon Prokurorluğunun birgə təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Neftçala rayonunda "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda;

**3 dekabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yardımlı rayonunda "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda;

**6 dekabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Zərdab RİH və RPŞ-nın birgə təşkilatçılığı ilə "Məişət zorakılığı, erkən nikah, narkomaniya və dini radikalizm" mövzusunda;

**7 dekabr** – DQİDK və Səbail RİH-in birgə təşkilatçılığı ilə Həbib bəy Mahmudbəyov adına 2 saylı Texniki-humanitar elmlər liseyində "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Qusar rayon GİI, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mözusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Quba Dövlət Sosial İqtisadi Kollecində "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran şəhər TŞ, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzinin birgə təşkilatçılığı ilə "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran Şəhər TŞ və İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzinin birgə təşkilatçılığı ilə "Mənəvi dəyərlərimizi qoruyaq!" mövzusunda;



**8 dekabr** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağcabədi RİH-in birgə təşkilatçılığı ilə "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Quba regional mərkəzi və QMİ-nin respublikanın şimal bölgəsində fəaliyyət göstərən qazılıqlarının birgə təşkilatçılığı ilə "Səmavi dinlərdə insan haqları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə Tibb Kollecində "Məişət zorakılığının qarşısının alınmasında əxlaqi-dini dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı RİH, Masallı RPŞ və təhsil şöbələrinin birgə təşkilatçılığı ilə "Dini radikalizm və ekstremizm, narkomaniya, erkən nikaha yox deyək" mövzusunda;

**9 dekabr** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və QMİ-nin şimal bölgəsində fəaliyyət göstərən qazılıqlarının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Mingəçevir ŞİH və şəhər Media Mərkəzinin birgə təşkilatçılığı ilə "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın təşkilatçılığı ilə "İntihar: mənəvi və ictimai müstəvidə" mövzusunda;

**10 dekabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax şəhər E.Babayev adına 4 saylı tam orta məktəbində "Uşaqların humanizm və tolerantlıq ruhunda tərbiyəsinin mənəvi-psixoloji aspektləri" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı Rayon Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişafı və Karyera Mərkəzinin Saatlı rayon nümayəndəliyi və rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri;



**13 dekabr** – DQİDK-nın təşkilatçılığı ilə "İntihar: mənəvi və ictimai müstəvidə" mövzusunda;

**14 dekabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in birgə təşkilatçılığı ilə "Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında təhsilin əhəmiyyəti" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş Peşə Məktəbinin birgə təşkilatçılığı ilə "Erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz RİH, rayon GİI-nin birgə təşkilatçılığı ilə Əsabəli Mehdi Kərimov adına Bayan kənd tam orta məktəbində "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lerik RİH-in birgə təşkilatçılığı ilə "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Laçın RİH-in birgə təşkilatçılığı ilə "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;

**14 dekabr** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Milli dövlətçiliyin möhkəmlənməsində milli-mənəvi dəyərlərin rolu" mövzusunda;

**15 dekabr** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Milli dövlətçiliyin möhkəmlənməsində milli-mənəvi dəyərlərin rolu" mövzusunda DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı RİH-in birgə təşkilatçılığı ilə "Dini radikalizm və ekstremizim, narkomaniya, erkən nikaha yox deyək!" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Hacıqabul rayon mədəniyyət müəssisələrinin birgə təşkilatçılığı ilə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayon Quləbənd kənd Cəsarət Zülfüqarov adına tam orta məktəbdə "Dini radikalizm və zərərli vərdişlərdən uzaq gənclik" mövzusunda;




**16 dekabr** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar RİH, rayon GİI-nin birgə təşkilatçılığı ilə "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, şəhər Gənclər və İdman Baş İdarəsi, şəhər Səhiyyə Şöbəsi və şəhər Polis İdarəsinin birgə təşkilatçılığı ilə "Gəncləri dini radikalizm – ekstremizm və narkomaniyanın zərərli təsirlərindən qoruyaq" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Salyan rayon GİI və rayon TŞ-nin birgə təşkilatçılığı ilə "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Saatlı, Sabirabad, İmişli və Beyləqan rayonlarında fəaliyyət göstərən dini icma sədrləri, din xadimlərinin iştirakı ilə dini icmaların 2021-ci il üçün yekun hesabatı və cari il üçün görüləcək işlər barədə; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Goranboy RİH-in birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Dəmir Yumruq" sənədli filminin nümayişi;

**17 dekabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Yardımlı rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Çayüzü kənd tam orta məktəbində "Azərbaycançılıq ideologiyası və milli-mənəvi dəyərimiz" mövzusunda;

**22 dekabr** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Neftçala rayonunda "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda;

**23 dekabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı RİH-in birgə təşkilatçılığı ilə "Dini radikalizm, narkomaniya və erkən nikaha qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi,

davamı səh. 15

# QISA-QISA

əvvəli səh. 14 Hacıqabul rayon Natiq Rüstəmov adına Abdulabad kənd tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında təhsilin əhəmiyyəti" mövzusunda;



**24 dekabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və RİH, Ucar RPŞ, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rayon şöbəsi və Ucar TŞ-in birgə təşkilatçılığı ilə "Narkomaniya və zərərli vərdişlər" mövzusunda baş tutmuşdur.

Tədbirlərdə DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşları, rayonların dini icma sədrləri və din xadimləri, QMİ-nin səlahiyyətli nümayəndələri, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqları, uşaq birliyi təşkilatlarının rəhbərləri, həmçinin şagirdlər iştirak etmişlər.

Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışan natiqlər qeyd etmişlər ki, hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən birini də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi təşkil edir. Natiqlər məktəblilərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyini vurğulayaraq bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs etmişlər.

Çıxışlarda insan hüquqlarının tərkib hissəsi olan uşaq hüquqlarına, eləcə də onların təhsil hüququna diqqət çəkilmişdir. Vurğulanmışdır ki, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir və dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. Xüsusilə qeyd olunmuşdur ki, ölkəmizdə bütün dinlərin nümayəndələrinin hüquq, inanc və azadlığına hörmətlə yanaşılır.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, radikalizmin yaranma,



yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından da bəhs olunan konfranslar qarşılıqlı diskussiya şəklində baş tutmuşdur.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır.

# "AVROPA KOMİSSİYASININ SƏNƏDİ AVROPANIN XRİSTİAN KÖKLƏRİNİ GİZLƏTMƏKLƏ REALLIĞI TƏHRİF EDİR"

Vatikanın dövlət katibi Pyetro Parolin Avropa Komissiyasının işçilərinə "Milad" sözünü işlətməyi qadağan edən sənədini pisləyib. Onun fikrincə bu, Avropanın xristian köklərini gizlətməklə reallığı təhrif edir.

Bu barədə "catholicnewsagency" məlumat yayıb.

"Vatican news"-a müsahibəsində kardinal "Bərabərlik Alyansı: Avropa Komissiyasının İnklüziv Kommunikasiya üzrə Təlimatları" (#UnionOfEquality. European Commission Guidelines for Inclusive Communication) adlı 32 səhifəlik daxili sənədi tənqid edib.

Kardinal Parolin müsahibəsində təmkinlə qeyd edib ki, ümumilikdə hökumətin ayrı-seçkiliyə qarşı mübarizədə göstərdiyi cəhdlər təqdirəlayiqdir. "Lakin mənim fikrimcə, bu məqsədə çatmaq üçün uğursuz yol seçilib", - deyə dövlət katibi vurğulayıb. "Çünki bu, son nəticədə iki əsas istiqamətdə insanların məhvinə aparıb çıxarır. Birinci istiqamət dünyamızın müxtəlifliyidir. Təəssüf ki, hazırda təbii fərqlərimizə qarşı dözümsüzlük, onun homogenləşdirilməsi meyilləri var. Bu fərqləri, əlbəttə ki, qarşıdurma və diskriminasiya səviyyəsinə çatdırmaq



olmaz, lakin hansısa bütöv insanlıq yaratmaq naminə onları düşünmədən silmək və eyniləşdirmək də olmaz. İkinci istiqamət isə reallığın unudulmasıdır. Reallığı görmək istəməyən, ona qarşı çıxan özünü ciddi təhlükə qarşısında qoyur. Müxtəlifliyi məhv etmək və kökündən qoparmaq cəhdləri insan şəxsiyyətinin tamamilə məhvinə gətirib çıxarır".

İtaliyanın "Il Giornale" qəzeti xəbər verir ki, təlimatlarda Avropa Komissiyası işçilərini "xristian əqidələrini nümayiş etdirməməyə" çağırır. Sənəd müəllifləri bu fikirlərini belə əsaslandırırlar: "Hər kəs xristian bayramlarını qeyd etmir, həmçinin bütün xristianlar bu bayramları eyni günlərdə qeyd etmirlər". AK rəhbərliyi Brüssel və Lüksemburqdakı rəsmilərinə ilin bu dövrünü "Milad" adlandırmamağı, "bayram günləri" ifadəsini işlətməyi tövsiyə edir.

Oktyabrın 26-da çıxan təlimatlar Aİ-nin bərabərlik üzrə komissarı Helena Dalli tərəfindən imzalanmışdı. Bir ay sonra, noyabrın 30-da isə komissar Dalli tənqidlərə təslim oldu və Təlimatları geri götürərək, onların "əlavə aydınlaşdırmaya ehtiyacı olduğunu" qeyd etdi. "Təlimatları Komissiyanın əməkdaşlarına kömək etmək üçün daxili sənəd kimi hazırlamaq təşəbbüsüm mühüm məqsəd daşıyırdı: Avropa mədəniyyətlərinin müxtəlifliyinə hörmət etmək, Avropa Komissiyasının inklüzivliyini, onun cəmiyyətin bütün təbəqələrinə və avropalıların inanclarına diqqətini vurğulamaq. Bununla belə, Təlimatların hazırkı versiyası natamamdır və bu məqsədə çatdırmır. Bu, Komissiyanın keyfiyyət standartlarına cavab verməyən yetişməmiş bir sənəddir. Ona görə də mən Təlimatları geri götürürəm və bu sənəd üzərində işləməyə davam edəcəyəm".

# GƏNCLƏR ÜÇÜN "DOSTOYEVSKİ LÜĞƏTİ" NƏŞR OLUNUB




Parisdəki Slavyan Araşdırmaları İnstitutu "Dostoyevski lüğəti"ni (Dictionnaire de Dostopevski) nəşr edib. Toplunun müəllifi Kan-Normandiya Universitetinin fəxri professoru, rus ədəbiyyatı üzrə mütəxəssis, slavyanşünas Mişel Niködür. Kitabda Dostoyevski yaradıcılığının süjetləri, konsepsiyaları, dilinin stilistikası, o cümlədən filoloji və dini aspektləri təhlil edilir.

Mişel Nikö qeyd edib ki, belə bir kitab hazırlamaq ideyası ilk lokdaun zamanı gəlib. Bu, kitab oxumaq üçün əlverişli olan bir zaman idi. "Bu lüğətdən daha çox, bələdçi kitabıdır. Tələbələrdən tez-tez belə bir sual eşidirdim: "Dostoyevskinin romanlarını necə oxuyaq ki, daha asan başa düşülsün?" Buna görə də bu bələdçi tələbələr və ya Dostoyevski romanlarının mürəkkəb, dolaşıq, bir qədər də qorxulu dünyasına girməyə cəsarət etməyən hər kəs üçün nəzərdə tutulub". Müəllifin fikrincə, bələdçi mütaliəni əvəz etmir, sadəcə vacib detalları sezməyə, əsərlərin mənalarının müxtəlif yozumlarını tapmağa kömək edir.

Hərtərəfli məqalələr Dostoyevskinin müxtəlif mətnlərində rast gəlinən mövzulara və ya ideyalara həsr olunub: fəlsəfi suallar, xeyir, şər, azadlıq, teoloji düşüncələr, nihilistlər, qərbçilər, sosializm, eləcə də estetik məqamlar - fantaziya, gözəllik və s. Bir neçə məqalə Dostoyevskinin bütün yaradıcılığının mərkəzini təşkil edən dini mövzulara həsr edilib.

"Dostoyevskinin lüğəti" yazıçının anadan olmasının iki yüz illiyinə həsr olunub.

# VLADİMİR PUTİN: MƏHƏMMƏD PEYĞƏMBƏRİ TƏHQİR ETMƏK YARADICILIQ AZADLIĞI DEYİL

Məhəmməd peyğəmbəri təhqir etmək yaradıcılıq azadlığı deyil.

Bunu Rusiya Prezidenti Vladimir Putin böyük mətbuat konfransı zamanı söyləyib.



O deyib ki, Məhəmməd peyğəmbərin təhqir edilməsi, yaxud Hitlerin şəklinin "Ölməz alay" saytında yerləşdirilməsi dini azadlığın pozulması və müsəlmanların müqəddəs hisslərinə toxunmaqdır. Bu cür hərəkətlər, məsələn, Fransadakı kimi, daha kəskin ekstremist cinayətlərə yol açır.

CƏMİYYƏT və DİN
№ 12 (362) DEKABR 2021-ci il

# İƏT-İN BAŞ KATİBLİYİ ABŞ NÜMAYƏNDƏLƏR PALATASININ BEYNƏLXALQ İSLAMOFOBİYA İLƏ MÜBARİZƏ AKTINI ALQIŞLAYIB




İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş Katibliyi dekabrın 14-də ABŞ-ın Nümayəndələr Palatası tərəfindən qəbul edilmiş Beynəlxalq İslamofobiya ilə Mübarizə Aktını alqışlayan bəyanat yayıb.

İƏT Baş Katibliyi qəbul olunmuş sənəddə dini və etnik ayrı-seçkiliyə və nifrətə, inanc zəminində zorakılığa qarşı qətiyyətli mübarizə əzmini dəstəklədiyini bəyan edib. Təşkilat, həmçinin ABŞ Dövlət Departamenti, xüsusi monitorinq mərkəzi tərəfindən bu hallara qarşı aparılacaq mübarizəyə öz töhfəsini verməyə hazır olduğunu bildirib.

Bəyanatda vurğulanıb ki, İƏT-in Baş Katibliyi beynəlxalq ictimaiyyəti qarşılıqlı anlaşma, sülh şəraitində dinc yanaşı yaşama, dinlər arasında harmoniya prinsipləri ətrafında birləşməyə çağırır.

# İLON MASKIN ŞİRKƏTİ GƏLƏN İL İNSAN BEYNİNƏ İLK ÇİP YERLƏŞDİRMƏYİ PLANLAŞDIRIR



İlon Mask bildirib ki, ona məxsus olan Neuralink şirkəti 2022-ci ildə insan beyninə bu şirkətin çiplərinin implantasiyasına başlamağı planlaşdırır.

Beyinlərinə çiplər yerləşdiriləcək ilk pasiyentlər onurğa beyni ağır zədələnmiş insanlar olacaq. Təsisçilərindən biri Mask olan Neuralink şirkəti tərəfindən yaradılan çiplər insanların beyninə bu orqanın aktivliyini qeydə almaq və stimulyasiya etmək üçün implantasiya olunacaq.

Çipin təbabətdə, məsələn, onurğa beyninin ciddi zədələrinin və nevroloji pozuntuların müalicəsi üçün tətbiq edilməsi nəzərdə tutulur. Mask "The Wall Street Journal" nəşrinin Direktorlar Şurasının sammitində birbaşa efirdə müsahibə zamanı şirkətin 2022-ci il üçün planları barədə sualın cavabında bildirib ki, Neuralink texnologiyası meymunlar üzərində sınaqdan keçirilib. Ekspertlər bu çipin təhlükəsiz və etibarlı olduğunu, habelə zəruri hallarda çipi təhlükəsiz çıxarmaq mümkün olduğunu təsdiq ediblər.

Neuralink şirkəti beynin interfeysi texnologiyasının yaradılması ilə məşğul olan yeganə şirkət deyil. Bu il iyul ayında 20 nəfər əməkdaşı olan Synchron biotexnologiya firması həmin çiplərin insanlar üzərində testlənməsinə başlamaq üçün Qida məhsullarının və dərman vasitələrinin keyfiyyətinə Sanitar Nəzarəti İdarəsinin razılığını alıb.

# AVROPANIN MİLAD YARMARKALARININ REYTİNQİ AÇIQLANIB

Bu yaxınlarda "A-Z" sosioloji qrupu tərəfindən aparılan tədqiqat bütün Avropa üzrə Milad bazarlarını təhlil edib, onların reytinqinin hesablanması və orta statistik turist üçün ən yaxşısının aşkarlanması məqsədilə bir sıra amilləri indikator qismində ayırıb.

Edinburq özünün qeyri-adi Milad bazarı ilə bütün dünyada məşhurdur. 1999-cu ildən başlayaraq keçirilən Milad bazarı burada 54 gün davam edir və bütün bazarlar arasında ən uzunmüddətli hesab olunur. Bu, turistlərə hədiyyə seçməyə və bayramdan zövq almağa kifayət qədər vaxt qazandırır.

Avropada populyarlığına görə ikinci Milad bazarı da Böyük Britaniyada, şimal şəhəri Mançesterdə yerləşir.

Avropada populyarlığına görə üçüncü Milad bazarı Praqada yerləşir.

Ən uzunmüddətli Milad bazarları Edinburq (54 gün), İnsbruk (50 gün) və Qlazqodadır (49 gün).

"Google" versiyasına görə isə ən populyar Milad bazarları Mançester (74.460 sorğu), Edinburq (70.100 sorğu) və Yorkdadır (63.320 sorğu).

## Bakı və Abşeron üzrə namaz vaxtları (Yanvar - 2022)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:37 | 08:04 | 12:44 | 15:44 | 17:40 | 18:46 |
| 2 | 06:37 | 08:04 | 12:44 | 15:45 | 17:41 | 18:47 |
| 3 | 06:37 | 08:04 | 12:45 | 15:45 | 17:42 | 18:47 |
| 4 | 06:37 | 08:04 | 12:45 | 15:46 | 17:43 | 18:48 |
| 5 | 06:37 | 08:04 | 12:46 | 15:47 | 17:44 | 18:49 |
| 6 | 06:37 | 08:04 | 12:46 | 15:48 | 17:45 | 18:50 |
| 7 | 06:37 | 08:04 | 12:47 | 15:49 | 17:46 | 18:51 |
| 8 | 06:37 | 08:04 | 12:47 | 15:50 | 17:47 | 18:52 |
| 9 | 06:37 | 08:03 | 12:48 | 15:51 | 17:47 | 18:52 |
| 10 | 06:37 | 08:03 | 12:48 | 15:52 | 17:48 | 18:53 |
| 11 | 06:37 | 08:03 | 12:48 | 15:53 | 17:49 | 18:54 |
| 12 | 06:37 | 08:03 | 12:49 | 15:54 | 17:50 | 18:55 |
| 13 | 06:37 | 08:03 | 12:49 | 15:55 | 17:52 | 18:56 |
| 14 | 06:37 | 08:02 | 12:50 | 15:56 | 17:53 | 18:57 |
| 15 | 06:36 | 08:02 | 12:50 | 15:57 | 17:54 | 18:58 |
| 16 | 06:36 | 08:01 | 12:50 | 15:59 | 17:55 | 18:59 |
| 17 | 06:36 | 08:01 | 12:51 | 16:00 | 17:56 | 19:00 |
| 18 | 06:35 | 08:01 | 12:51 | 16:01 | 17:57 | 19:01 |
| 19 | 06:35 | 08:00 | 12:51 | 16:02 | 17:58 | 19:02 |
| 20 | 06:35 | 07:59 | 12:52 | 16:03 | 17:59 | 19:03 |
| 21 | 06:34 | 07:59 | 12:52 | 16:04 | 18:00 | 19:04 |
| 22 | 06:34 | 07:58 | 12:52 | 16:05 | 18:01 | 19:05 |
| 23 | 06:33 | 07:58 | 12:52 | 16:07 | 18:03 | 19:06 |
| 24 | 06:33 | 07:57 | 12:53 | 16:08 | 18:04 | 19:07 |
| 25 | 06:32 | 07:56 | 12:53 | 16:09 | 18:05 | 19:08 |
| 26 | 06:32 | 07:55 | 12:53 | 16:10 | 18:06 | 19:09 |
| 27 | 06:31 | 07:55 | 12:53 | 16:11 | 18:07 | 19:10 |
| 28 | 06:30 | 07:54 | 12:54 | 16:12 | 18:08 | 19:11 |
| 29 | 06:30 | 07:53 | 12:54 | 16:14 | 18:10 | 19:12 |
| 30 | 06:29 | 07:52 | 12:54 | 16:15 | 18:11 | 19:14 |
| 31 | 06:28 | 07:51 | 12:54 | 16:16 | 18:12 | 19:15 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# YAPONİYADA "QIZIL" HEROQLİFİ İLİN RƏMZİ SEÇİLİB

"Qızıl" heroqlifi Yaponiyada 2021-ci ilin rəmzi seçilib.

Bu barədə dekabrın 13-də müsabiqənin təşkilatçısı olan Yaponiya Heroqlif Biliklərini Yoxlama Assosiasiyasının tviter səhifəsində məlumat yayılıb. Bildirilir ki, həmin heroqlif, həmçinin "Pul" mənasını verir.

Assosiasiyanın yaydığı məlumatda deyilir ki, müsabiqəyə daxil olan 223,7 min səs arasında "Qızıl" heroqlifi ən çox – 10,4 min və ya 4,66 faiz səs toplayıb.

İlin rəmzinin belə adlandırılmasının səbəbi kimi, bu yay Tokioda keçirilən Olimpiya və Paralimpiya Oyunlarında yapon idmançıların ən çox qızıl medal qazanması göstərilir.

Bu heroqlifin seçilməsində Olimpiya Oyunlarının xüsusi rolunu ikinci yeri tutan "təkər, üzük, halqa" mənasını verən heroqlifin seçilməsi də təsdiq edir.

Yeni seçilən heroqlif məşhur Kiyomizu buddist məbədinin rahibi tərəfindən 1,5x1,3 metr ölçüdə "vasi" vərəqinə çəkilib. Məbəd Kioto şəhərində yerləşir.

Məlumat üçün qeyd edək ki, 2020-ci ildə Yaponiyada ilin rəmzi olaraq "darısqallıq" heroqlifi seçilmişdi. Bunun həmin vaxt Yaponiyada da geniş yayılan koronavirus pandemiyası ilə əlaqədar olduğu və insanları sıx toplaşma yerlərindən uzaq olmağa çağırdığı qeyd edilir.

## Qeyri-kommersiya dini qurumlarının dövlət reyestr (Dini qurumların dövlət reyestri) məlumatı

**Yardımlı rayonu Hamarkənd kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 03 dekabr 2021-ci il
Qeydiyyat №-si: 100121D – 952
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Yardımlı rayonu, Hamarkənd kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Rüstəmxanlı Sadat Xudu oğlu

**Yadigar söz** — ***Tomas Edison***

*Ən böyük səhvimiz çox tez təslim olmağımızdadır. Uğura gedən ən düzgün yol isə hər dəfə yenidən cəhd etməkdən keçir.*

Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Universal Poliqraf" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894